

Azərbaycan Respublikasının Prezidenti səhiyyə sahəsində təchizat və təminatla bağlı Fərman imzalayıb

2



Prezident İlham Əliyev: «Azərbaycan Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləyəcək»

2



Dövlət başçısının Sərəncamı ilə beynəlxalq konfransın Təşkilat Komitəsi yaradıldı

5


# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

№ 05-06 (765) 31 mart 2023-cü il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Türk dövlətləri fəlakətlərə qarşı birgə mübarizə aparacaq

*Azərbaycan Prezidenti İlham Əliyev Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə iştirak edib*




5

## Prezident İlham Əliyev X Qlobal Bakı Forumunun açılış mərasimində iştirak edib




4

## Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçirilib




8

## X Qlobal Bakı Forumunda «Yeni qlobal səhiyyənin qurulması strukturu» panel iclası keçirilib




7

## Ağdamda Azərbaycan - BMT tərəfdaşlığı üzrə strateji məsləhətləşmələr aparılıb



9

### Aforizm

*Həyatda cəmi iki mühüm qərar var — haraya getmək və kiminlə getmək.*
*Ceffri Gitomer*

# Prezident İlham Əliyev: «Azərbaycan Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləyəcək»

***Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü keçirilib***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilmiş Zirvə görüşündə iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Zirvə görüşündə iştirak edən Əlcəzair Xalq Demokratik Respublikasının Baş naziri Ayman Benabderrahmanı, Keniyanın Baş naziri Uakylif Musalia Mudavadini, Tanzaniyanın Vitse-prezidenti Filip İsdor Mpanqonu, Kuba Respublikasının Vitse-prezidenti Salvador Antonio Valdes Mesanı, Birləşmiş Ərəb Əmirliklərinin Ali Şurasının üzvü, Ras əl-Xeymə Əmirliyinin hakimi Əlahəzrət Şeyx Saud Bin Saqr Al Qasimini, Qabonun Vitse-prezidenti xanım Rouz Kristian Ossuka Rapondanı, Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösini, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviçi, İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidi, Liviyanın Prezident Şurasının sədri Məhəmməd Yunis Əl-Mənfini, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovu, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevi qarşılayıb.

Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan Respublikasının Prezidenti **İlham Əliyev** tədbiri açaraq qonaqları salamlayıb: «Üç ildən bir qədər çox əvvəl elə həmin bu zalda Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi qəbul etdi. Qürurla deyə bilərəm ki, bu Hərəkat son bir neçə ildə beynəlxalq münasibətlərdə mühüm aktorlardan biri olub».

Sammit səviyyəli görüşün gündəliyi təsdiq olunduqdan sonra **Prezident İlham Əliyev** Qoşulmama Hərəkatının sədri kimi çıxış edib.

İştirakçıları salamlayan dövlət başçısı Azərbaycanın sədrliyinə göstərdikləri dəstəyə görə üzv dövlətlərə minnətdarlıq edib: «Qoşulmama Hərəkatının sədri olaraq məqsədimiz ədaləti və beynəlxalq hüququ müdafiə etməkdir. Pandemiyanın başlamasından dərhal sonra COVID-19-a qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış edən məhz Qoşulmama Hərəkatı oldu.

Biz 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürdük. Zirvə toplantısında məlumat bazası hazırlamaq üçün Qoşulmama Hərəkatının İşçi Qrupunun yaradılması qərara alındı. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin ehtiyaclarını müəyyən etmək üçün bu məlumat bazasına istinad edib.

Mən həmin Zirvə toplantısında BMT Baş Assambleyasının liderlər səviyyəsində xüsusi sessiyasının çağırılmasını təklif etmişdim. Bu təklif BMT-yə üzv dövlətlər arasında böyük dəstək qazandı.



Xüsusi sessiya 2020-ci ilin dekabr ayında keçirilib və tədbirdə 70-dən çox dövlət və hökumət başçısı çıxış edib. Xüsusi sessiyada beynəlxalq həmrəyliyin artırılmasının zəruriliyi vurğulanıb, Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyi qəbul edilib.

Biz bəzi varlı ölkələrin həyata keçirdiyi «peyvənd millətçiliyi»ni xüsusilə pandemiya ilə mübarizədə ciddi maneə kimi qiymətləndirdik. Nəticədə, Qoşulmama Hərəkatı bütün ölkələrin peyvəndlərdən ədalətli və vahid şəkildə istifadəsini təmin etmək üçün 2021-ci ildə BMT-nin İnsan Hüquqları Şurasında və BMT Baş Assambleyasında qəbul edilmiş iki qətnamənin təşəbbüskarı oldu.

Qoşulmama Hərəkatının pandemiya ilə mübarizə üçün qlobal səylərin səfərbər edilməsində liderliyi Hərəkatın nüfuzunu və məsuliyyətini bir daha nümayiş etdirdi.

Azərbaycan əksəriyyəti bizim Qoşulmama Hərəkatı ailəsinin üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ya ikitərəfli kanallar, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə və humanitar yardım göstərib.

Azərbaycan Hərəkatın institusional inkişafına güclü dəstək verir. Biz Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması təşəbbüsü ilə çıxış etdik. Şəbəkənin ilk iclası 2022-ci ilin iyun ayında Bakıda keçirilib.

Bundan başqa, 2022-ci ilin iyulunda Şuşa Razılaşması əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı yaradılıb. Təşkilatın daimi katibliyi Bakıda yerləşəcək.

*(Davamı 3-cü səhifədə)*

# Səhiyyə sahəsində təchizat və təminatla bağlı fəaliyyətin təkmilləşdirilməsi və «Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, səhiyyə sahəsində təchizat və təminatla bağlı fəaliyyətin təkmilləşdirilməsi üzrə həyata keçirilən tədbirlərin davam etdirilməsi məqsədilə **qərara alıram:**

**1.** «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» publik hüquqi şəxsin (bundan sonra — TƏBİB) tabeliyindəki tibb müəssisələrinin fəaliyyətinin təşkili məqsədilə onları «Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada zəruri iş, xidmət, malmaterial və digər ləvazimatla təmin etmək üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan «İnnovasiya və Təchizat Mərkəzi» (bundan sonra — Mərkəz) əmlakı ilə birlikdə TƏBİB-in tabeliyinə verilsin.

**2.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi öz tabeliyində «Səhiyyənin Təminat Mərkəzi» (bundan sonra — Qurum) publik hüquqi şəxsi yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**3.** Müəyyən edilsin ki:

3.1. Mərkəzin «Publik hüquqi şəxslər haqqında» Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulan təsisçisinin səlahiyyətlərini TƏBİB həyata keçirir;

3.2. Mərkəzin saxlanılması və fəaliyyətinin təmin edilməsi onun fəaliyyətindən əldə edilən gəlirlər, icbari tibbi sığorta sistemindən daxil olan vəsait, ianələr, qrantlar və qanunla qadağan edilməyən digər mənbələrdən daxil olan vəsait hesabına həyata keçirilir;

3.3. Qurumun «Publik hüquqi şəxslər haqqında» Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulan təsisçisinin səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

3.4. Qurumun saxlanılması xərcləri 2023-cü il və növbəti illərin dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi üçün nəzərdə tutulmuş vəsait çərçivəsində həyata keçirilir.

**4.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

4.1. Qurumun nizamnaməsini, strukturunu, işçilərinin say həddini və əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri) bir ay müddətində təsdiq etsin;

4.2. Qurumun dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5.** TƏBİB:

5.1. Mərkəzin nizamnaməsini, strukturunu, işçilərinin say həddini və əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri) iki ay müddətində təsdiq etsin;

5.2. «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Mərkəz soyuq zəncir texnologiyalarına uyğun şəraitdə saxlanılması zəruri olan dərman vasitələri üçün balansındakı anbarlardan Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin ödənişsiz istifadəsini təmin etsin.

**7.** «Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2575; 2019, № 6, maddə 1012, № 12, maddələr 1937, 1953; 2020, № 3, maddə 254; 2022, № 5, maddə 445, № 8, maddə 846) 2-ci hissəsindən «İnnovasiya və Təchizat Mərkəzi,» sözləri çıxarılsın.

**8.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**9.** Bu Fərmanın 1-ci və 7-ci hissələri 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri 9 mart 2023-cü il*

*(Əvvəli 2-ci səhifədə)*

# Prezident İlham Əliyev: «Azərbaycan Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləyəcək»




Məqsədimiz institusional davamlılıq yaratmaq və Azərbaycandan sonra sədrliyi təhvil alacaq üzvlərə uğurlu miras qoymaqdır.

2021-ci ildə Belqradda keçirilən Yüksək Səviyyəli yubiley görüşündə mən Hərəkatın COVID-19-dan sonrakı dövrlə bağlı mövqeyini formalaşdırmaq məqsədilə Qoşulmama Hərəkatına üzv dövlətlərin yüksək səviyyəli görüşünün keçirilməsi ideyasını irəli sürdüm. Bunu nəzərə alaraq mən bu Zirvə toplantısını çağırdım və inanıram ki, bu tədbir yeni meydana çıxan qlobal əhəmiyyətli məsələləri müzakirə etmək imkanı yaradacaq».

Prezident İlham Əliyev həmçinin beynəlxalq təhlükəsizlik arxitekturası və multilateralizmin üzləşdiyi təhlükələr, beynəlxalq hüququn norma və prinsiplərinin aşınması, suverenliyin və ərazi bütövlüyünün pozulması, neokolonializm, dövlətlərin daxili işlərinə müdaxilə halları kimi təhdidlər haqqında da danışıb.

Dövlət başçısı BMT sistemində islahatlarla bağlı fikrini də açıqlayıb.

Prezident İlham Əliyev bildirib ki, pandemiya «2030: Davamlı İnkişaf Məqsədləri»nin icra olunmasına mənfi təsir edib: «Hədəflərə çatmaqda geriləmənin qarşısını almaq və 2030-cu il gündəliyinin icrasına vaxtında nail olmaq üçün qlobal səylər gücləndirilməlidir. Bu məqsədlə biz BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılmasını təklif etmişik. Bu panel postpandemiya dövrü üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlaya bilər. Mən Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə çağırıram».

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan COVID-19 pandemiyası dövründə olduğu kimi, Qoşulmama Hərəkatının ehtiyacı olan üzv ölkələrinə maliyyə və humanitar yardım göstərməyə davam edəcək: «Mən burada iki qlobal çağırışı bəyan edirəm. Bunlar Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləməkdir. Məmnuniyyətlə elan edirəm ki, Azərbaycan ilk donor ölkə kimi hər iki qlobal çağırışa 1 milyon ABŞ dolları məbləğində vəsait ayırır. İnanıram ki, Qoşulmama Hərəkatının üzvləri və beynəlxalq ictimaiyyətin digər üzvləri Azərbaycanın təşəbbüsünü dəstəkləyəcək və bizə qoşularaq postpandemiya bərpası dövründə ehtiyacı olan ölkələrə dəstək verəcəklər».

Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə öz maliyyə resursları ilə genişmiqyaslı yenidənqurma işləri apardığını söyləyən Prezident İlham Əliyev bildirib ki, Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır: «Ölkə üçün humanitar minatəmizləmənin böyük əhəmiyyətini nəzərə alaraq, Azərbaycan hazırda xüsusi milli Dayanıqlı İnkişaf Məqsədinin müəyyən edilməsini nəzərdən keçirir. Azərbaycan Dayanıqlı İnkişaf Məqsədləri və minatəmizləmə fəaliyyəti arasında birbaşa əlaqə görür, çünki minalar yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin geri dönməsini ləngidir. Azərbaycan minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq edir. Biz Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə dəvət edirik».

Sonra BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti **Tsaba Körösi** çıxış edərək hazırda bəşəriyyətin dünyada yaşanan müxtəlif proseslərin, o cümlədən COVID-19 pandemiyasının ciddi təsirlərinə məruz qaldığını vurğulayıb, bu problemlərin qarşısını almaq üçün qarşılıqlı əlaqələrin genişləndirilməsi baxımından belə görüşlərin önəmini qeyd edib: «Pandemiya yaşadığımız əsrin ən böyük səhiyyə böhranını yaratdı. Bu göstərdi ki, pandemiyadan yeganə çıxış yolu təkcə sərhədlər daxilində deyil, beynəlxalq səviyyədə həmrəyliyin inkişaf etdirilməsidir».

Azərbaycanın COVID-19-a qarşı mübarizə istiqamətində irəli sürdüyü təşəbbüslərin önəmini vurğulayan Tsaba Körösi deyib: «Azərbaycan tərəfindən bununla bağlı irəli sürülən təşəbbüslər, həmçinin peyvəndlərə vaxtında və ədalətli qaydada çıxış və əlçatanlıq da qarşılıqlı dəstəyin bir nümunəsidir. Qoşulmama Hərəkatı bu böhrana cavab verməK və pandemiyanın nəticələrini aradan qaldırmaq üçün qlobal həmrəylik göstərərək təşəbbüslər irəli sürmüşdür».

BMT-nin Cenevrədəki bölməsinin baş direktoru **Tatyana Valovaya** Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreşin adından çıxış edərək Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünə ev sahibliyinə görə Prezident İlham Əliyevə və Azərbaycana minnətdarlığını ifadə edib. XXI əsrdə çoxtərəfli əməkdaşlıq baxımından Qoşulmama Hərəkatının əhəmiyyətinin daha da artdığını vurğulayan T.Valovaya Hərəkatın dayanıqlı inkişaf, iqlim dəyişikliyinə qarşı mübarizə və sülhün bərqərar olunması istiqamətində aktiv fəaliyyət göstərdiyini bildirib. O, dünyada 6,5 milyon insanın ölümünə, bərabərsizliyin daha da güclənməsinə, böyük depressiyaya və işsizliyə səbəb olan pandemiyanın bir sıra sahələrə, xüsusilə təhsilə sarsıdıcı təsirlər göstərdiyini qeyd edib. Postpandemiya dövründə qlobal əməkdaşlığın, xüsusilə gənclər üçün lazımi şəraitin yaradılmasının və onların arasında əlaqələrin gücləndirilməsinin vacibliyini qeyd edən BMT rəsmisi bu baxımdan institusional tədbirlərin görülməsinin vacib rol oynadığını bildirib, Azərbaycanın bununla bağlı irəli sürdüyü təşəbbüsləri xüsusi vurğulayıb.

Daha sonra Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru **Tedros Adhanom Gebreyesusun** videomüraciəti dinlənilib. T.Gebreyesus videomüraciətində Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırıb. Qoşulmama Hərəkatına üzv ölkələrin pandemiyadan əziyyət çəkdiyini vurğulayan Baş direktor bildirib ki, postpandemiya dövründə daha təhlükəsiz və sağlam sistemlərin qurulmasında Hərəkatın üzvlərinin kollektiv təcrübəsindən faydalanmaq çox zəruridir. Ümumdünya Səhiyyə Təşkilatı beynəlxalq səviyyədə pandemiyaya hazırlıq və cavab tədbirləri ilə bağlı sənədlərin qəbul olunması istiqamətində Qoşulmama Hərəkatına üzv ölkələrin səylərinin gücləndirilməsinə dair müraciət edib. Tedros Adhanom Gebreyesus Ümumdünya Səhiyyə Təşkilatının maliyyələşdirilməsinə fəal qoşulmağın zəruriliyini və yerli istehsalın qurulmasına sərmayə qoyulmasının prioritet hədəflər olduğunu vurğulayıb.

Zirvə görüşü işini plenar sessiya ilə davam etdirib.

Özbəkistan Respublikasının Prezidenti **Şavkat Mirziyoyev** qeyd edib ki, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının beynəlxalq arenada rolu və nüfuzu əsaslı şəkildə artıb, bu mühüm platforma çərçivəsində ölkələr arasında çoxtərəfli əməkdaşlıq yeni səviyyəyə çatdırılıb. Pandemiya dövrünün çətinliklərinə baxmayaraq, həmrəylik və sıx birlik daha da möhkəmlənib. Təşkilatın tarixində ilk dəfə onun parlament və gənclər şəbəkələri yaradılıb.

Özbəkistan Prezidenti BMT-də islahatlar məsələsinə toxunaraq, Azərbaycan Prezidentinin Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatının üzvlərinin daimi yeri olması barədə təklifini dəstəkləyib.

Zirvə görüşündə iştirak üçün dəvətə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə təşəkkürünü bildirən İraq Prezidenti **Əbdüllətif Camal Rəşid** qlobal pandemiya böhranından sonrakı dövrdə infrastrukturun və xidmətlərin təkmilləşdirilməsinin, qida təhlükəsizliyinin təmin olunmasının vacibliyini diqqətə çatdırıb, ölkəsində bu istiqamətlərdə atılan addımlardan bəhs edib.

Liviya Dövləti Prezident Şurasının sədri **Məhəmməd Yunis Əl-Mənfi** Azərbaycanın Qoşulmama Hərəkatının inkişafına və beynəlxalq arenada onun nüfuzunun artmasına göstərdiyi səylərə və verdiyi töhfələrə, habelə bu təşkilatda uğurlu sədrliyinə görə təşəkkürünü bildirib. Qeyd edib ki, COVID-19 pandemiyası bəşəriyyət üçün beynəlxalq münaqişələrin çoxundan daha ciddi nəticələr doğurub. Prezident Şurasının sədri Liviyanın qarşılıqlı münasibətlərin inkişafına yönəlmiş birgə əməkdaşlığa sədaqətini saxladığını bildirib, bütün dövlətləri Liviyada davam edən münaqişənin həllinə və bu ölkənin inkişafına dəstək verməyə çağırıb.

Türkmənistan Prezidenti **Sərdar Berdiməhəmmədov** koronavirus pandemiyasının nəticələrinin bütün ölkələrin siyasi, iqtisadi və digər sahələrdə inkişafına ciddi təsir göstərdiyini vurğulayıb. Türkmənistan Prezidenti pandemiyanın nəticələrinin qısa müddətdə aradan qaldırılması üçün dövlətlərin öz səylərini birləşdirməsinin və bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməsinin önəmini qeyd edib. Sərdar Berdiməhəmmədov bu məqsədlə fikir mübadiləsinin aparılması, ortaq mexanizmlərin müəyyənləşdirilməsi üçün birgə platformanın yaradılması təklifini irəli sürüb, üzv ölkələrin parlamentləri və aidiyyəti qurumları ilə yanaşı, elm və təhsil müəssisələrinin də bu prosesə cəlb olunmasının vacibliyini vurğulayıb.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri **Jelka Tsviyanoviç** Zirvə görüşündə iştirak üçün dəvətə görə Qoşulmama Hərəkatının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib. O, Qoşulmama Hərəkatının yarandığı zaman dünyaya lazım olan sülh, sabitlik və əməkdaşlıq kimi məsələlərin bu gün də öz aktuallığını saxladığını söyləyib. Koronavirus pandemiyasının uzunmüddətli mənfi təsirlərə səbəb olduğunu deyən Jelka Tsviyanoviç insan itkilərini, səhiyyə sistemində və digər sahələrdə yaranan çətinlikləri qeyd edib. Həmçinin bildirib ki, iqtisadi problemlər qlobal səviyyədə və dövlətlərdə, xüsusilə yoxsul ölkələrdə daha mürəkkəb tənəzzülə səbəb olub.

Qoşulmama Hərəkatının rolunu təqdirəlayiq hesab edən Jelka Tsviyanoviç Hərəkatın koronavirus pandemiyasının qarşısının alınması istiqamətində böyük səylər göstərdiyini vurğulayıb. Qeyd edib ki, COVID-19 pandemiyasından sonra bir çox digər mövzular da aktualdır. Böyük çağırışlar var, çətinliklər heç də azalmayıb, yaxud da yox olmayıb. O, məhz bu səbəbdən Sammitin dünya ictimaiyyətinin diqqətini postpandemiya dövründə bərpa proseslərinə cəlb edəcəyinə əminliyini bildirib.

*(Davamı 4-cü səhifədə)*

# «Dünya bu gün: Çağırışlar və ümidlər»

## *Prezident İlham Əliyev bu mövzuda X Qlobal Bakı Forumunun açılış mərasimində iştirak edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə «Dünya bu gün: Çağırışlar və ümidlər» mövzusunda X Qlobal Bakı Forumu keçirilib.**

Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

X Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail Serageldin** indiki ağır zəmanədə insanların bir araya gəlməsinin, tarixdən götürülmüş dərslərin bir daha nəzərdən keçirilməsinin vacibliyini vurğulayıb: «Biz bir-birimizi ayıran xətləri aşaraq, etnik, irqi və digər cəhətlərə baxmayaraq, ümumbəşəri məqsədlər üçün çalışmalı, mübarizə aparmalıyıq. Çünki hamımız bu fikirdəyik. Bildiyiniz kimi, BMT 2000-ci ildə Minilliyin İnkişaf Məqsədlərini, 2015-ci ildə isə Dayanıqlı İnkişaf Məqsədlərini qəbul edərək hamımız üçün, bütün bəşəriyyət üçün ümumi bir gündəlik müəyyənləşdirmişdir. İndi bizim qarşımızda ümumi çağırışlar var. Biz bilirik ki, pandemiya dövründə milyonlarla insan həyatını itirdi. Bu gün isə iqlim dəyişikliyi ilə yanaşı, su qıtlığı, ərzaq təhlükəsizliyi daha qabarıq şəkildə ortaya çıxır. Bu cür çağırışların həlli yolları tapılmalıdır».

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev** Forumun açılış mərasimində çıxış edib.

Dövlət başçısı qonaqları salamlayıb və X Qlobal Bakı Forumunda iştiraka görə təşəkkür edib. Həmsədrlərin, bütün idarə heyətinin düşünülmüş və səmərəli fəaliyyəti sayəsində 60-dan çox ölkədən 350-dən artıq nümayəndənin, o cümlədən 50-dən artıq hazırkı və sabiq prezident və baş nazirin iştirak etdiyi tədbirdə iştirakçıların təmsilçilik səviyyəsinin və intellektual potensialının aparıcı beynəlxalq konfranslara uyğun olduğunu söyləyən Prezident müzakirələrin səviyyəsinin kifayət qədər yüksək olacağını təxmin etdiyini deyib.

Panellərdən birinin multilateralizmə həsr olunmasını xatırladan dövlət başçısı bundan məmnunluğunu ifadə edib: «Xüsusilə ona görə ki, Azərbaycan Qoşulmama Hərəkatına 2019-cu ildə öz üzərinə götürdüyü və 120 dövlətin yekdil qərarı ilə daha bir il – 2023-cü ilədək uzadılmış sədrliyini başa çatdırır. Biz böyük ənənələrə sahib, lakin müəyyən dövr ərzində, təəssüf ki, bir az passiv Qoşulmama Hərəkatını canlandırmağa çalışdıq. Bu məqsədlə beynəlxalq tədbirlər və üç Zirvə toplantısı təşkil etdik. Biz COVID-19-a dair BMT Baş Assambleyasının Xüsusi Sessiyasının təşkilinin təşəbbüskarı olduq. Biz fəal çalışaraq pandemiya ilə mübarizə sahəsində məlumat bazasının yaradılmasına nail olduq ki, daha sonra o, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən istifadə edildi. Biz Zirvə toplantılarından birini pandemiya ilə mübarizəyə həsr etdik. Pandemiyanın ilk aylarında peyvənd millətçiliyinə və peyvəndlərin qeyri-bərabər paylanılmasına etiraz səsimizi ucaltdıq. COVID-19-dan sonrakı dövr məsələsinə diqqət yönəltdik. Bununla yanaşı, biz əksəriyyəti Qoşulmama Hərəkatına üzv olan 80-dən artıq ölkəyə maliyyə və humanitar yardım etdik. Biz koronavirusla mübarizəni dəstəkləmək üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində birbaşa ianə etdik».




Prezident İlham Əliyev həmçinin Qoşulmama Hərəkatının institusional inkişafı üçün atılan addımlardan, Qoşulmama Hərəkatının sülh, əməkdaşlıq, ərazi bütövlüyünə və suverenliyə hörmət, sərhədlərin toxunulmazlığı kimi təməl prinsiplərinə əməl olunmasının vacibliyindən, Azərbaycanın Ermənistanla münaqişənin həlli üçün gördüyü işlərdən danışıb. Dövlət başçısı çıxışında enerji və daşımalar dəhlizləri, enerji keçidi məsələlərinə də toxunub, «Biz dünyamızın daha dinc və təhlükəsiz olmasına töhfə verməyə çalışacağıq» deyib.

Sonra Latviya Respublikasının Prezidenti **Egils Levits** çıxış edərək Latviya ilə Azərbaycan arasında əlaqələrin inkişafından danışıb, ölkəmizin son illərdə beynəlxalq münasibətlərdə oynadığı mühüm rolu vurğulayıb: «Azərbaycan Qoşulmama Hərəkatında aparıcı rol oynayır. Azərbaycan COVID-19 pandemiyasından sonrakı qlobal diskussiyalara aparıcılıq edir. Xüsusən, Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun bu yaxınlarda keçirilən Zirvə görüşünü qeyd edərdim».

Timor-Leste Demokratik Respublikasının Prezidenti **Jose Ramos Horta** qlobal dünya nizamını təhdid edən mühüm problemlərdən, o cümlədən dünyada təhlükəsizliyin və sülhün təmin olunması üçün perspektivlərdən danışmağın vacibliyini vurğulayıb.

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi **Migel Anxel Moratinos** Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ənənəyə çevirdiyi bu tədbirdə iştirak etməkdən məmnunluğunu bildirib, Azərbaycan ilə BMT-nin Sivilizasiyalar Alyansı arasında əməkdaşlığın bundan sonra da genişləndirilməsini səmimiyyətlə arzuladığını söyləyib.

BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru **Vinni Byanyima** pandemiyadan sonrakı dövrdə beynəlxalq səviyyədə inteqrasiyanı gücləndirməyin və əməkdaşlığı genişləndirməyin vacibliyini vurğulayıb, belə bir platformada və müzakirələrdə iştirakdan şad olduğunu deyib.

Daha sonra Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru **Tedros Adhanom Gebreyesusun** videomüraciəti iştirakçılara təqdim olunub. ÜST rəhbəri çıxışında deyib ki, səhiyyəyə investisiya dayanıqlı inkişafa da təsirini göstərir. Biz bunu insan hüquqlarının müdafiəsi istiqamətində də istifadə edə bilərik. Tedros Gebreyesus forumun səmərəli olacağına və müzakirə edilən problemlərin həllinə müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib. Forumun təşkilinə görə Azərbaycanın Prezidentinə və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkürünü bildirib.

Tədbirdə həmçinin İtaliya Respublikasının Prezidenti **Sercio Mattarellanın** və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri **Rişi Sunakın** məktubları oxunub.

Sonda Latviyanın sabiq Prezidenti və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **Vayra Vike-Freyberqa** çıxış edərək, dünyada hazırkı geosiyasi vəziyyət haqqında danışıb, müharibə və təhdidlərin beynəlxalq səviyyədə bir sıra ciddi problemlər doğurduğunu bildirib. Həmsədr bir çox münaqişələrin həlli yollarının tapılması baxımından Forumun işini yüksək qiymətləndirib.

Forum işini panel iclaslarla davam etdirib.

Bu dəfə «Dünya bu gün: Çağırışlar və ümidlər» mövzusuna həsr olunan Qlobal Bakı Forumunda yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə, bölünmüş dünyada dayanıqlılığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər salınıb, qarşıda duran çağırışların həlli yolları müzakirə olunub, dünyanı sarsıdan münaqişələrə, meqatəhdidlərə, o cümlədən iqlim, qida və nüvə təhlükəsizliyi məsələlərinə toxunulub, postpandemiya dövründə görüləcək işlərlə bağlı fikir mübadiləsi aparılıb. Həmçinin qlobal yoxsulluğun, bərabərsizliyin, iqlim böhranının və münaqişələrin simptomu kimi miqrasiyanın qarşısının alınması üçün tədbirlər əsas müzakirə mövzularından olub.

# Prezident İlham Əliyev: «Azərbaycan Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləyəcək»

*(Əvvəli 3-cü səhifədə)*

Zirvə görüşü Azərbaycanın xarici işlər naziri **Ceyhun Bayramovun** sədrliyi ilə plenar sessiyalarla davam edib.

Kuba Respublikasının vitse-prezidenti Salvador Antonio Valdes Mesa, Qabonun Vitse-prezidenti xanım Rouz Kristian Ossuka Raponda, Tanzaniyanın Vitse-prezidenti Filip İsdor Mpanqo, Efiopiya Baş nazirinin müavini Demeke Mekonnen Hassen çıxış edərək tədbirin əhəmiyyətini vurğulayıb, qarşıda dayanan problemlərin həlli istiqamətində səylərin birləşdirilməsinin vacibliyindən danışıblar.

Əlcəzair Xalq Demokratik Respublikasının Baş naziri Ayman Benabderrahman, Serbiya Baş nazirinin birinci müavini - xarici işlər naziri İvitsa Daçiç, Belarus Baş nazirinin müavini İqor Petrişenko, Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova, Bəhreynin səhiyyə naziri Jaleela Sayed Javad Hasan Javad, Çadın ictimai səhiyyə naziri Abdelmajid Abdelrahim Mahamat, Tunisin səhiyyə naziri Ali Mrabet və digərləri çıxış edərək bildiriblər ki, pandemiya böyük insan itkisi ilə nəticələnib. Pandemiya müddətində Ümumdünya Səhiyyə Təşkilatı və Qoşulmama Təşkilatı uzunmüddətli əməkdaşlığın əsasını qoyub. COVID-19 pandemiyası insanlara çoxtərəfli əməkdaşlıqların əhəmiyyətini nümayiş etdirib. Pandemiya səbəbindən yaranan iqtisadi tənəzzül birgə fəaliyyəti zəruri edir. Bu baxımdan, Qoşulmama Hərəkatı daxilində əməkdaşlığın gücləndirilməsi, qarşılıqlı faydalı əlaqələrin qurulması da mühüm əhəmiyyət kəsb edir.

Çıxışlarda qeyd olunub ki, pandemiya miqrantlar və köçkünlərlə bağlı bərabərsizliyi daha da dərinləşdirib, onlar üçün ciddi problemlər yaradıb. Bundan əlavə, dünya əhalisinin üçdəbiri hələ də COVID-19 vaksininin ilk dozasını qəbul etməyib. Diqqətə çatdırılıb ki, dünya gələcəkdə yeni pandemiyaların olmasından sığortalanmayıb, ona görə də insanlar gələcəkdə potensial pandemiyalara və onların yarada biləcəyi çətinliklərə hazır olmalıdırlar.

Eyni zamanda, Hərəkata sədrliyi dövründə Azərbaycanın COVID-19-la mübarizədə göstərdiyi səylərə, sadiqlik və beynəlxalq həmrəyliyə görə ölkəmizə minnətdarlıq ifadə edilib. Vurğulanıb ki, Azərbaycanın sədrliyi dövründə Prezident İlham Əliyev tərəfindən Hərəkatın gələcəyi naminə bir çox təşəbbüslər irəli sürülüb. Həmçinin bildirilib ki, Qoşulmama Hərəkatı pandemiyadan sonrakı dövrdə çox mühüm rol oynaya bilər.

Sonda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Sammit iştirakçılarına dərin minnətdarlığını bildirərək qeyd edib ki, tarixindən, siyasətindən və mədəniyyətindən asılı olmayaraq, Hərəkat üzvləri eyni prinsiplər ətrafında birləşiblər. Nazir vurğulayıb ki, bu Sammit həmrəylik, əməkdaşlıq və multilateralizmin əsl nümunəsinə çevrilib. Sammit çərçivəsində ikitərəfli gündəlikdə duran məsələlər üzrə səmərəli görüşlər keçirilib və müzakirələr aparılıb.

C.Bayramov həmçinin vurğulayıb ki, Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycan beynəlxalq gündəmdəki bir sıra aktual məsələlərin həllində liderlik nümayiş etdirib. Onun sözlərinə görə, Azərbaycanın təşkilatda sədrlik müddəti bu il başa çatsa da, ölkənin Qoşulmama Hərəkatına yardımı və onunla əməkdaşlığı fəal şəkildə davam edəcək.

Sonda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşünün yekunlarına dair sənəd qəbul olunub.

Qeyd edək ki, Azərbaycan bu ilin sonunda Qoşulmama Hərəkatına sədrliyi Uqandaya təhvil verəcək.

# Türk dövlətləri fəlakətlərə qarşı birgə mübarizə aparacaq

## *Azərbaycan Prezidenti İlham Əliyev Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə iştirak edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev tədbirdə iştirak edib.

Türkiyə Respublikasının Prezidenti **Rəcəb Tayyib Ərdoğan** Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılayıb.

Sammitin açılışında çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş verən zəlzələdən sonra «Fəlakət – Fövqəladə halların idarə edilməsi və humanitar yardım» mövzusunda Fövqəladə Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib, Ankara Sammitində türkdilli ölkələr arasında iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verəcək qərarların qəbul olunacağını vurğulayıb. Bu baxımdan Türk İnvestisiya Fondunun yaradılmasına dair qərarı xüsusi qeyd edən Türkiyə Prezidenti bu Fondun üzv ölkələr arasında bir sıra sahələrdə əməkdaşlığın daha da inkişafına mühüm töhfə verəcəyini bildirib.




**Azərbaycan Prezidenti İlham Əliyev** Fövqəladə Zirvə görüşündə çıxış edib.

Qardaş Türkiyədə çoxsaylı insanın tələfatına və xəsarət almasına səbəb olan güclü zəlzələnin bizi olduqca kədərləndirdiyini deyən dövlət başçısı faciə ilə əlaqədar həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verib, yaralananlara şəfa diləyib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan hökuməti və xalqı zəlzələ baş verən andan qardaş Türkiyəyə humanitar yardımlar etmək üçün səfərbər olub: «Azərbaycandan 940 nəfər, o cümlədən xilasedicilər, tibb personalı və könüllülər zəlzələ bölgəsinə göndərilib. Türkiyəyə göndərilən xilasedicilərin sayına görə Azərbaycan dünya ölkələri arasında birinci olub. Xilasedicilərimizin və həkimlərimizin səyi nəticəsində dağıntılar altından 53 nəfər sağ çıxarılıb. Həmçinin 780 nəfərin cəsədi dağıntılar altında aşkar edilib. Tibb personalımız ümumilikdə 3 mindən artıq şəxsə tibbi xidmət göstərib.

Bu günə qədər 45 milyon ABŞ dollarından artıq vəsait AFAD və digər humanitar qurumların bank hesabına köçürülmüşdür. Bununla yanaşı, qardaş Türkiyəyə 5320 ton humanitar yardım çatdırılmışdır».

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanında olub, bundan sonra da belə olacaq.

Zirvə görüşündə həmçinin Türk Dövlətləri Təşkilatına sədrlik edən Özbəkistan Respublikasının Prezidenti **Şavkat Mirziyoyev**, Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri **Qurbanqulu Berdiməhəmmədov,** Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev,** Qırğızıstan Prezidenti **Sadır Japarov,** Macarıstanın Baş naziri **Viktor Orban** və başqaları çıxış ediblər. Liderlər fəlakətlərlə mübarizədə Türk Dövlətləri Təşkilatı daxilində çoxtərəfli sıx əməkdaşlıq və koordinasiya mexanizmlərinin yaradılmasına diqqət çəkib, regionda mövcud çağırışlarla bağlı məsləhətləşmələr aparıblar.

Zirvə görüşünə yekun vuran Özbəkistan Prezidenti Şavkat Mirziyoyev sammitdə qəbul olunan qərarların ölkələrimiz arasında əməkdaşlığın inkişafına yeni töhfələr verəcəyinə əminliyini bildirib.

Sonda Ankara Bəyannaməsi və mülki müdafiə mexanizminin qurulmasına dair Protokol imzalanıb.

# Dövlət başçısının Sərəncamı ilə beynəlxalq konfransın Təşkilat Komitəsi yaradıldı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Bədən Tərbiyəsi və İdman üzrə Nazirlərin və Yüksək Vəzifəli Şəxslərin VII Beynəlxalq Konfransının (MİNEPS VII) 2023-cü ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında» Sərəncam imzalayıb.**

Sənəddə bildirilir ki, idman sahəsində hökumətlərarası təşkilatları, idman hərəkatlarını, ixtisaslaşmış qeyri-hökumət təşkilatlarını və idman mütəxəssislərini bir araya toplayan UNESCO-nun Bədən Tərbiyəsi və İdman üzrə Nazirlərin və Yüksək Vəzifəli Şəxslərin Beynəlxalq Konfransı (MİNEPS) dünyada bədən tərbiyəsi və idman sahəsinə töhfə verən ən nüfuzlu tədbirlərdən biri hesab olunur.

2022-ci il oktyabrın 28-də Paris şəhərində UNESCO-nun Bədən Tərbiyəsi və İdman üzrə Hökumətlərarası Komitəsinin (CİGEPS) növbəti sessiyasında Azərbaycan Respublikası Hökuməti ilə UNESCO arasında Ev sahibliyi haqqında Saziş imzalanmış və Azərbaycan 2023-cü ildə keçiriləcək MİNEPS VII Beynəlxalq Konfransına, eləcə də əlaqədar yığıncaqların təşkilinə ev sahibliyi etmək hüququ əldə etmişdir.

Bununla əlaqədar olaraq, həmin Sərəncamla müvafiq Təşkilat Komitəsi yaradılıb, onun sədri və üzvləri müəyyən edilib. Belə ki, Konfransın keçirilməsi üzrə Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikasının gənclər və idman naziri olacaq.

Təşkilat Komitəsi əlaqədar nazirliklərin nazir müavinlərindən və bir sıra qurumların rəhbər şəxslərindən təşkil olunub. Onun üzvləri arasında Azərbaycan Respublikası səhiyyə nazirinin müavini də var.

Təşkilat Komitəsinə MİNEPS VII Konfransının Bakıda keçirilməsinə dair Tədbirlər Planı hazırlayıb həyata keçirmək, Nazirlər Kabinetinə Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.



# Pandemiya dövründə Azərbaycanın İraqa humanitar dəstəyi minnətdarlıqla xatırlanıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, ölkəmizdə olmaqdan məmnunluğunu bildirən Əbdüllətif Camal Rəşid Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünə dəvətə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edib.

İraq Prezidenti Qoşulmama Hərəkatının indiki dövrdə beynəlxalq münasibətlərdə xüsusilə çox böyük rola malik olan bir təsisat olduğunu deyib.

İraq Prezidentinə ölkəmizə səfər etdiyinə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin başa çatmaq ərəfəsində olduğunu qeyd edib, sədrlik dövründə ölkəmizin Hərəkatın inkişafı naminə səylərini əsirgəmədiyini, onun təsisatlanması ilə bağlı bir sıra təşəbbüslər irəli sürdüyünü söyləyib, bu xüsusda Hərəkatın parlament və gənclər şəbəkəsinin yaradılmasını qeyd edib. Dövlətimizin başçısı Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının 3-cü Zirvə toplantısının da ölkəmizdə keçirildiyini vurğulayıb.

Prezident İlham Əliyev Ərəb Dövlətləri Liqasının Əlcəzairdə keçirilmiş Sammitində iştirakını məmnunluqla xatırlayıb, Azərbaycanın Ərəb dövlətləri ilə əlaqələrin inkişafına xüsusi önəm verdiyini bildirib.

İraq Prezidenti ölkəsinin Azərbaycanla münasibətləri daha da möhkəmləndirməkdə maraqlı olduğunu deyib, əməkdaşlığımızı genişləndirmək üçün yaxşı imkanların mövcudluğunu qeyd edib.

Əbdüllətif Camal Rəşid İraqın üzləşdiyi problemlər və təhlükəsizliyə təhdid yaradan hallar barədə məlumat verib, ölkəsinin artıq sabitlik mərhələsinə qədəm qoyduğunu bildirib.

Azərbaycan Prezidenti ölkələrimizin beynəlxalq təşkilatlarda yaxından əməkdaşlıq etməsi üçün geniş imkanların olduğunu deyib, bu xüsusda OPEC+ və digər formatları qeyd edib.

Pandemiya dövründə Azərbaycanın Qoşulmama Hərəkatına üzv dövlətlərə, həmçinin İraqa humanitar dəstək göstərməsi xatırlanıb.

Azərbaycan Prezidenti İraq dövlətinin başçısını ölkəmizə həmçinin rəsmi səfərə dəvət edib. Əbdüllətif Camal Rəşid dəvəti məmnunluqla qəbul edərək, öz növbəsində dövlətimizin başçısını İraqa səfərə dəvət edib.

Söhbət əsnasında dövlət başçıları sərmayələr, enerji, tikinti, nəqliyyat, təhsil sahələrində əməkdaşlıq məsələlərini müzakirə ediblər. İkitərəfli iqtisadi ticarət balansının genişləndirilməsinin və işgüzar dairələrin nümayəndə heyətlərinin səfərlərinin təşkil olunmasının əhəmiyyəti vurğulanıb.

## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Ali Şurasının üzvünü qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Ali Şurasının üzvü, Ras əl-Xeymə Əmirliyinin hakimi Əlahəzrət Şeyx Saud Bin Saqr Al Qasimini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycanda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünün keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik edən Əlahəzrət Şeyx Saud Bin Saqr Al Qasimi bu tədbirin xüsusi önəm daşıdığını bildirib.

Qonaq Birləşmiş Ərəb Əmirliklərinin rəhbərliyinin salamlarını Prezident İlham Əliyevə çatdırıb.

Dövlət başçısı salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin rəhbərliyinə çatdırmağı xahiş edib.

Azərbaycan Prezidenti Əlahəzrət Şeyx Saud Bin Saqr Al Qasiminin səfərinə və Birləşmiş Ərəb Əmirliklərinin sammitdə iştirakına görə minnətdarlığını bildirib.

Dövlətimizin başçısı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq və qardaşlıq münasibətlərinin olduğunu qeyd edib, iki ölkənin liderlərinin münasibətlərini xüsusi vurğulayıb.

Sammitin əhəmiyyəti barədə danışan Azərbaycan Prezidenti ölkəmizin sədrlik dövründə Qoşulmama Hərəkatının təsisatlanması və beynəlxalq münasibətlər sistemində rolunun artırılması baxımından ciddi şəkildə fəaliyyət göstərdiyini deyib.

Görüşdə ikitərəfli əlaqələr barədə fikir mübadiləsi aparılıb. Bərpaolunan enerji sahəsində Birləşmiş Ərəb Əmirliklərinin «Masdar» şirkətinin ölkəmizdə həyata keçirdiyi layihənin əhəmiyyəti vurğulanıb. Turizm sahəsində əməkdaşlığın inkişaf etdiyi bildirilib, qarşılıqlı turist səfərlərinin artmasının insanlar arasında təmaslara xidmət etdiyi qeyd olunub.

## Prezident İlham Əliyev BMT-nin İİV üzrə Birgə Proqramının icraçı direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru Vinni Byanyimanı qəbul edib.**



AZƏRTAC xəbər verir ki, X Qlobal Bakı Forumunda iştirakından məmnunluğunu bildirən Vinni Byanyima Forumun çox yüksək səviyyədə təşkil olunduğunu deyib, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaradılmasını olduqca əhəmiyyətli bir təşəbbüs kimi qiymətləndirib, bu təsisatın dünya səviyyəsində nüfuzunun artdığını vurğulayıb.

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ilk fəaliyyətinin dahi Azərbaycan şairi Nizami Gəncəvinin ana yurdu olan qədim Gəncə şəhərindən başladığını qeyd edərək, sonrakı illərdə bu Mərkəzin daha da inkişaf etdiyini və bu il artıq ölkəmizdə X Qlobal Bakı Forumunun keçirildiyini deyib.

Dövlətimizin başçısını Qoşulmama Hərəkatının sədri olaraq uğurlu fəaliyyətinə və Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə təbrik edən Vinni Byanyima Hərəkatın bugünkü beynəlxalq münasibətlərdə çox vacib rol oynadığını vurğulayıb.

Qonaq Azərbaycanın səhiyyə sahəsində, o cümlədən yoluxucu xəstəliklər və QİÇS-ə qarşı mübarizədə qazandığı uğurları qeyd edərək, bu xüsusda davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində ciddi nailiyyətlərin əldə olunduğunu deyib. O, rəhbərlik etdiyi təşkilatın Afrika qitəsində və digər ölkələrdə həyata keçiriləcək layihələrinə Azərbaycanın dəstəyini xahiş edib.

Müstəqilliyimizin ilk illərində Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində bir milyondan çox azərbaycanlının öz evindən didərgin düşdüyünü, onların çadır şəhərciklərində yaşadığını xatırladan dövlət başçısı, o zaman Azərbaycanın iqtisadi durumunun aşağı səviyyədə olduğunu və ölkəmizin çox ciddi çətinliklərlə üzləşdiyini qeyd edib, həmin dövrdə Azərbaycana beynəlxalq təsisatlar tərəfindən dəstəyin göstərildiyini bildirib. Prezident İlham Əliyev vurğulayıb ki, hazırda Azərbaycan beynəlxalq səviyyədə yardım proqramlarına öz töhfəsini verərək potensial donor ölkəsinə çevrilib. Dövlət başçısı Azərbaycanın BMT-nin aidiyyəti təsisatları ilə yaxından əməkdaşlıq etdiyini və onların fəaliyyətini dəstəklədiyini bildirib.

## Azərbaycan Prezidenti Almaniyanın aparıcı şirkətləri ilə əməkdaşlığı müzakirə edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyaya səfəri çərçivəsində Berlində bu ölkənin aparıcı şirkətlərinin rəhbərləri ilə görüşü olub.**

AZƏRTAC-ın verdiyi məlumata görə, görüşü açan tədbirin moderatoru, Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru **Mixael Harms** dövlət başçısını bütöv alman biznes cəmiyyəti adından salamlayıb.

Müxtəlif sektorları təmsil edən otuz alman şirkətinin, həmçinin Federativ Hökumətin nümayəndələrinin iştirak etdiyi toplantıda Prezident İlham Əliyev Azərbaycanın iqtisadi inkişafı üzrə planlar haqqında, xüsusilə ikitərəfli əməkdaşlıq çərçivəsində alman bizesləri üçün imkan və fürsətlər haqqında məlumat verib.

Sonra dəyirmi masa müzakirəsində enerji, logistika və infrastruktur, sənaye, kənd təsərrüfatı və maliyyə klasterləri üzrə şirkət rəhbərləri öz şirkətləri, Azərbaycanla bağlı planları və layihələri barədə qısa məlumat veriblər.

Biznes layhələri arasında səhiyyəyə aid məsələlər də olub.

«Falk and Zeitung» şirkətinin təsisçisi və baş icraçı direktoru **Tomas Falk** bildirib ki, Almaniyada iri özəl klinikalar şəbəkəsi olan «Sana Clinic» şirkəti ilə birgə işləyirlər: «60 müasir klinikaya əlavə olaraq «Sana Clinic» bütün Avropada tibbi avadanlığın istehsalı şəbəkəsinə malikdir. Hazırda «Sana Clinic» Mərkəzi Asiyada ambulator tibbi xidmətlər göstərir. Bundan sonra istərdik ki, Azərbaycan kimi ölkələrin də tibbi xidmətlər bazarına daxil olaq».

Tomas Falk qeyd edilən səhiyyə sektoruna aid layihələr üzrə «Sana Clinic» şirkətinin fəaliyyəti üçün dəstək alacağına ümidvar olduğunu deyib: «Biz müvafiq vaxtda həmin məqsədlə görüşlər keçirmək üçün Azərbaycana səfər etməkdən məmnun olardıq».

«Gerber Architekten» şirkətinin icraçı direktoru **Marius Rayrko** şirkətin memarlıq, landşaft üzrə memarlıq, şəhərsalma və interyer dizaynı ilə məşğul olduğunu deyib: «Biz 60 ildir ki, Almaniyada, həmçinin Səudiyyə Ərəbistanı və Çində, əsasən dövlət sektorunda inşaat işi ilə məşğuluq. Biz həmçinin Almaniyaya universitetlər, dövlət sektoru binaları, kitabxanalar, səhiyyə layihələri və ekoloji cəhətdən bir çox faydalı binalarla öz töhfəmizi veririk. Hazırda biz Səudiyyə Ərəbistanında faydalı qazıntılara və enerjiyə əsaslanan cəmiyyətdən bərpaolunan enerjiyə əsaslanan cəmiyyətə keçidi həyata keçiririk». Marius Rayrko ötən il Azərbaycanda, Bakıda fəaliyyətə başladıqlarını, Qarabağa da səfər etdiklərini, danışıqlar apardıqlarını deyib. Bildirib ki, ölkəmizdə hər kəs üçün daha ağıllı və daha sağlam ətraf mühitin yaradılmasına dəstəyi alqışlayır.

Müzakirələrin sonunda Prezident İlham Əliyev Almaniya ilə Azərbaycan arasında həm haqqında danışılan, həm də digər sahələrdə güclü tərəfdaşlığı səbirsizliklə gözlədiyini deyib.

## Prezident İlham Əliyev: «Pandemiya zamanı Çinin Azərbaycana vaksinlər ayırması dostluğumuzun bariz nümunəsidir»

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Vu Honqbonu qəbul edib.**



AZƏRTAC xəbər verir ki, ilk növbədə, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını dövlətimizin başçısına çatdıran Vu Honqbo Azərbaycan Prezidenti ilə əvvəlki görüşlərini məmnunluqla xatırlayıb.

Qonaq bildirib ki, Azərbaycan Prezidentinin güclü rəhbərliyi altında ölkəmizin iqtisadi və digər sahələrdə əldə etdiyi uğurlar onlarda böyük təəssürat yaradır.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş edib.

Dövlət başçısı özünün Çinə rəsmi səfərini, bu səfər zamanı və beynəlxalq tədbirlərdə Çin Xalq Respublikasının Sədri ilə görüşlərini xatırlayaraq bildirib ki, Si Cinpinin Azərbaycan Prezidentini «Çinin böyük dostu» adlandırmasından böyük məmnunluq hissi duyur.

Vahid Çin siyasətini, Çinin ərazi bütövlüyü və suverenliyini daim dəstəklədiyini qeyd edən Prezident İlham Əliyev Azərbaycanın xarici siyasətində Çinlə əməkdaşlığın əsas prioritetlərdən biri olduğunu vurğulayıb, əlaqələrimizin ildən-ilə güclənməsindən məmnunluğunu bildirib və ölkələrimiz arasında əməkdaşlığın yalnız müxtəlif siyasi platformalarda deyil, eyni zamanda, iqtisadi sahədə və «Bir kəmər, bir yol» çərçivəsində də genişləndiyini deyib.

Prezident İlham Əliyev COVID-19 pandemiyası zamanı Çin Xalq Respublikasının Sədrinə göndərdiyi məktubu xatırladıb. Azərbaycan Prezidenti söyləyib ki, COVID-19 pandemiyası zamanı Çin ölkəmizə vaksinlər ayırdı və bunun nəticəsində Azərbaycan dünyada vaksinasiyaya başlayan ilk ölkələrdən biri oldu. Çinin Azərbaycana vaksinlər ayırmasını ölkələrimiz arasında dostluğun bariz nümunəsi kimi dəyərləndirən dövlət başçısı bu faktın Azərbaycan dövləti və xalqı tərəfindən çox yüksək qiymətləndirildiyini deyib.

Vu Honqbonun Bakıda keçiriləcək növbəti Qlobal Forumda iştirakını yüksək qiymətləndirən Azərbaycan Prezidenti onun səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirib.

Görüşdə iqtisadi, humanitar və turizm sahələrində əməkdaşlığın daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb, əlaqələrimizin inkişafı üçün böyük imkanların olduğu bildirilib, media, elm-tədqiqat mərkəzləri və insanlar arasında təmasların artırılmasının vacibliyi vurğulanıb.

## Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədri: «COVID-19 dövründə Azərbaycanın göstərdiyi dəstəyi yüksək qiymətləndiririk»

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak etmək üçün ölkəmizə səfər etdiyinə görə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrinə minnətdarlığını bildirib, səfər zamanı ikitərəfli əlaqələrimizlə bağlı müzakirələr aparmaq üçün imkanların da yarandığını deyib.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri ölkəmizdə olmasından məmnunluğunu bildirib, Bakının gözəlliyinin onu heyran etdiyini deyib. Qonaq münasibətlərimizin yüksək səviyyədə olduğunu qeyd edib, COVID-19 dövründə və Bosniya və Herseqovinada baş vermiş daşqınlar zamanı Azərbaycanın onun ölkəsinə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini vurğulayıb.

Jelka Tsviyanoviç iqtisadiyyat, ticarət, investisiya, enerji və digər sahələrdə əməkdaşlıq üçün böyük imkanların olduğunu qeyd edib.



Görüşdə Azərbaycan ilə Bosniya və Herseqovina arasında siyasi münasibətlərin çox yaxşı səviyyədə olduğu vurğulanıb, iqtisadi-ticari əlaqələrin daha da gücləndirilməsinin, həmçinin biznes dairələri arasında birbaşa təmasların təşviqinin vacibliyi bildirilib.

Söhbət zamanı Bakı və Sarayevo şəhərlərinin hələ ötən əsrin 70-ci illərindən qardaşlaşmış şəhərlər olduğu xatırlanıb, şəhərlərarası əlaqələrin inkişafının da önəmi vurğulanıb.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət edib. Azərbaycan Prezidenti dəvəti məmnuniyyətlə qəbul edib.

## X Qlobal Bakı Forumunda «Yeni qlobal səhiyyənin qurulması strukturu» panel iclası keçirilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən «Dünya bu gün: Çağırışlar və ümidlər» mövzusunda X Qlobal Bakı Forumunun ikinci günündə dörd panel iclasında müzakirələr aparılıb.**

AZƏRTAC xəbər verir ki, Bolqarıstanın sabiq Prezidenti **Rosen Plevneliyevin** moderatorluğu ilə keçirilən panel iclası «Yeni qlobal səhiyyənin qurulması strukturu: sağlamlığın təbliği, təmin edilməsi, mühafizəsi, gücləndirilməsi və bu istiqamətdə fəaliyyət» mövzusuna həsr olunub.

İclasa videoçarx vasitəsilə qoşulan Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru **Tedros Adhanom Gebreyesus** koronavirus pandemiyasından sonra həyatın bərpa mərhələsində olduğunu deyib: «Son dövrlərdə ÜST-nin əsas məqsədi gələcək pandemiyalara qarşı daha da hazırlıqlı olmaqdır. COVID-19 bir daha göstərdi ki, sağlamlıq hər şeydən daha vacibdir. Biz bütün ölkələri təşviqi, təminatı, qorunmanı, səlahiyyətlənməni və icra (5P) planını nəzərə almağa çağırırıq. Səhiyyə sisteminin səviyyəsini artırmaq üçün ölkələr təchizatla təmin olunmalıdır».

Eyni zamanda, ilkin tibbi yardımın vacibliyini vurğulayan Tedros Gebreyesus diqqətə çatdırıb: «İlkin tibbi yardımın düzgün aparılması bir çox məsələdə həyatları xilas edə bilər. ÜST-nin ölkələr üçün koronavirusla bağlı 300-dən çox tövsiyəsi oldu və bu tövsiyələrin nəticəsində bu sahədə irəliləyişlər müşahidə edildi. Həmin dövrdə pandemiya üçün beynəlxalq səviyyədə fond yaradıldı.

ÜST sağlamlıq naminə dövlətlərə kömək etməyə davam edəcək. Bu il ÜST-nin yaradılmasının 75-ci ildönümüdür. 75 il əvvəl dövlətlər belə bir birgə qərar qəbul ediblər ki, sağlamlıq bütün insanların hüququdur».

BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru **Vinni Byanyima** koronavirus pandemiyası zamanı vaksinlərin bölüşdürülməsi prosesindən danışıb. Deyib ki, pandemiyanın elan olunduğu dövrdən bəri COVID-19 ilə bağlı bəzi şirkətlər milyardlarla gəlir əldə edib. Bu, qarşısı alına bilən xəstəlikdir, lakin vaksinlərin kasıb ölkələrə düzgün paylanılmaması səbəbindən bir çox insan həyatını itirdi. Vaksinlər kütləvi məhsullar kimi satılmalıdır.

Liderləri strukturla bağlı problemləri həll etməyə çağıran Vinni Byanyima qeyd edib ki, pandemiya iqtisadi cəhətdən geri qalan ölkələrdə xaos yaradıb. «BMT-də bu məsələ ilə bağlı danışıqlar keçirilməlidir və biz gələcək pandemiyalara hazırlıqlı olmalıyıq. Əgər müəyyən planlar tərtib olunmazsa, daha çox insan həyatını itirə bilər», — deyə V.Byanyima bildirib.




Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Baş direktorunun müavini **Nacat Muxtar** çıxışında qeyd edib ki, COVID-19 pandemiyası dünyanı bir sıra məsələlərdə on il geri atıb. Hazırda dövrümüzün ən böyük bəlalarından birinin də xərçəng xəstəliyi olduğunu deyən N.Muxtar dünyanın bir sıra ölkələrinin bu xəstəliyin müalicəsi üçün lazımi avadanlıqlarının olmadığını diqqətə çatdırıb. O, dünyada xəstəliklərə qarşı birgə səylərin artırılmasının vacibliyini vurğulayıb.

Monteneqronun sabiq Prezidenti **Filip Vuyanoviç** diqqətə çatdırıb ki, COVID-19 dönəmində bir çox insan vəziyyətin ciddiliyini nəzərə almadığından pandemiyanın fəsadları ağır oldu. Bəzi kasıb ölkələrdə gözləniləndən daha çox insan həyatını itirdi. Sabiq Prezident Şərqi Avropada vəziyyətin daha ağır olduğunu deyib, insanların öz həyatları haqqında daha çox düşünmələrinin vacibliyini qeyd edib. Pandemiyanın xüsusilə gənclərin həyatına mənfi təsir göstərdiyini vurğulayan F.Vuyanoviç bunun işsizliyə də gətirib çıxardığını deyib.

Azərbaycanın səhiyyə naziri **Teymur Musayev** çıxışında bildirib ki, COVID-19 pandemiyasından sonra yenilənmiş qlobal sağlamlıq arxitekturasının qurulması son dərəcə aktual məsələyə çevrilib: «Əminəm ki, qlobal sağlamlığın gələcəyinin formalaşdırılması ilə bağlı bugünkü panel müzakirələri bəşəriyyət üçün mümkün sağlamlıq təhdidlərinə qarşı birgə səylərimizin gücləndirilməsinə töhfə verəcək».

Nazir qeyd edib ki, qlobal sağlamlıq üçün riskləri azaltmaq və davamlı sağlamlıq sistemlərinə nail olmaq məqsədilə həm beynəlxalq, həm də milli səviyyədə adekvat tədbirlər həyata keçirilməlidir. «Sağlamlığın təşviqi milli səviyyədə sağlamlıqla bağlı dayanıqlı inkişaf məqsədlərinə nail olmaq və daha güclü səhiyyə sistemlərini qurmaq üçün mərkəzi yer tutur. Qlobal miqyasda gözlənilən ömür uzunluğu artır, buna görə də səhiyyə mütəxəssisləri sağlamlığın bütün həyat boyu təmin edilməsinə üstünlük verməlidirlər», — deyən nazir vurğulayıb ki, fərdi həyat tərzi ilə səhiyyə xərcləri arasında əlaqə olduğu nəzərə alınaraq, vətəndaşlar sağlam həyat tərzi proqramlarında fəal iştiraka və hökumətlərlə sağlamlıq məsuliyyətini bölüşməyə təşviq edilməlidirlər. Fərdlərin davranış dəyişikliyi daha yaxşı sağlamlıq nəticələrinə nail olmaq üçün işləyə bilər.

Bosniya və Herseqovinanın sabiq Baş naziri **Zlatko Laqumciya** diqqətə çatdırıb ki, Avropada səhiyyə sahəsi daha yaxşı inkişaf edib. Lakin Avropa ölkələrində ölümlərlə bağlı vəziyyət Azərbaycanla müqayisədə daha pisdir.

Hadassa Tibb Mərkəzinin Baş direktoru **Yoram Veys** koronavirus pandemiyasının ölkələrə və dünya iqtisadiyyatına çox mənfi təsir etdiyini bildirib. «Tibb sahəsində yeni tədqiqatların aparılması vacibdir. Bu tədqiqatların aparılması təhsillə bilavasitə əlaqəlidir. Hazırda Hadassa Tibb Mərkəzində müxtəlif araşdırmalar aparılır. Kök hüceyrələr, xərçənglə mübarizə üsulları və digər sahələrdəki tədqiqatlarda irəliləyişlər var», — deyə Baş direktor vurğulayıb.

Böyük Britaniyanın 2007-2010-cu illərdə Baş naziri, BMT-nin Qlobal Təhsil üzrə xüsusi nümayəndəsi, ÜST-nin Qlobal Səhiyyənin Maliyyələşdirilməsi üzrə səfiri Qordon Braun videoçarx vasitəsilə müzakirələrə qoşularaq, dünya ölkələrinin əvvəlki səhvlərindən dərs çıxarmalı olduğunu vurğulayıb: «Böyük təəssüf hissi ilə deyirəm ki, bəzi ölkələrdə 4 nəfərdən yalnız biri vaksinasiya edilir. Rusiya – Ukrayna müharibəsindən sonra bir çox tibbi ləvazimatlarla bağlı çatışmazlıq müşahidə olunur. Müharibənin davam etdiyi bir vaxtda səhiyyə sahəsinin inkişafı çətinləşir. Səhiyyə sisteminə maliyyə dəstəyinin artacağını düşünürəm. Lakin bu, kifayət deyil. Aşağı gəlirli ölkələrə təhsil və səhiyyə sahəsində kömək göstərilməlidir. Dünyada xüsusilə infeksion xəstəliklərlə bağlı vəziyyət öyrənilməli və təhlil edilməlidir.

Qordon Braun iqlim dəyişikliyinə də toxunub, bunun səhiyyəyə də təsir göstərdiyini vurğulayıb.

Forum çərçivəsində həmçinin «Miqrasiya qlobal yoxsulluğun, bərabərsizliyin, iqlim böhranının və münaqişələrin simptomu kimi», «Avrasiya zonasında yeni enerji və nəqliyyat dəhlizlərinin rolu», «Qlobal inkişaf və təhlükəsizlikdə Çinin rolu» mövzularında panel iclasları da keçirilib.

# «Nurdan yaranıb nura qovuşan insan»

## *Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçirilib*




**Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın 100 illik yubileyi münasibətilə Səhiyyə Nazirliyi tərəfindən təşkil olunan silsilə tədbirlər çərçivəsində «Nurdan yaranıb nura qovuşan insan» adlı xatirə gecəsi keçirildi.**

Tədbirdə Səhiyyə Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) və digər dövlət orqanlarının rəhbər şəxsləri, millət vəkilləri və tanınmış ictimaiyyət nümayəndələri iştirak edirdilər.

«Bakı Konqres Mərkəzi»ndə keçirilən xatirə gecəsində ilk olaraq Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Daha sonra tədbir iştirakçılarına görkəmli alimin həyat və fəaliyyətini əks etdirən «Xatirələrlə yaşayan ömür» adlı videoçarx nümayiş olundu.

Xatirə gecəsində açılış nitqi söyləyən **səhiyyə naziri Teymur Musayev** vurğuladı ki, 2023-cü il Azərbaycanda iki unudulmaz insanın — müasir Azərbaycanın memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan elminin ən parlaq simalarından olan görkəmli oftalmoloq-



alim və həkim Zərifə xanım Əliyevanın 100 illik yubileylərinin qeyd olunması ilə əlamətdardır. Bu xatirə gecəsini akademik Zərifə Əziz qızı Əliyevaya dövlətin, xalqın, tibb ictimaiyyətinin sonsuz ehtiramının ifadəsi adlandıran nazir onun hər bir alim və həkim üçün, hər bir Azərbaycanlı üçün örnək olan nəcib və şərəfli həyat yolundan, bir alim, həkim, pedaqoq və insan kimi mənalı ömründən danışdı. Bildirdi ki, Zərifə xanım seçdiyi həkimlik sənətinin, oftalmologiya elminin fədaisi olaraq bu sahədə əzmlə, həvəslə çalışıb: «Mən, ilk növbədə, Zərifə xanımın bir alim kimi gələcək nəsillərə nümunə olacaq elmi fəaliyyətini vurğulamaq istərdim. O, elmdə heç vaxt asan yol axtarmırdı, keçilməmiş yollarla gedir, yeni cığırlar salırdı, öz elmi araşdırmalarını praktik əhəmiyyət daşıyan aktual mövzulara həsr edirdi. Onun namizədlik dissertasiyasının həsr olunduğu traxoma xəstəliyi də, doktorluq dissertasiyasının mövzusu olan peşə fəaliyyəti ilə bağlı göz xəstəlikləri də o dövrdə həllini tələb edən ciddi problemlər idi və Zərifə xanımın tədqiqatları bu çətinliklərin həllinə vəsilə oldu. Elmi tədqiqatlarını apararkən, traxomanı araşdırarkən Zərifə xanım xəstəliyin yayıldığı bölgələri gəzir, yerlərdə müayinələr aparırdı. Peşəkar fəaliyyətlə bağlı görmə problemlərini öyrənmək üçün dünyada sənaye müəssisəsində təşkil olunan ilk elmi-tədqiqat laboratoriyasını yaratmış, müxtəlif maddələrin gözə təsirini kimya sənayesi işçilərinin öz iş yerində araşdırmışdı.

Elm aləmində əsasını qoyduğu bu yeni istiqamət — peşə oftalmologiyası üzrə elmi araşdırmalarının uğurlu nəticələrinə, ümumilikdə, oftalmologiyanın inkişafına verdiyi böyük töhfələrə görə Zərifə xanım Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüş, bu mükafatla təltif olunan ilk qadın alim olmuşdur.

Zərifə xanımın tək bu xəstəliklər üzrə deyil, qlaukoma, gözün travmaları, virus zədələnmələri, bədxassəli şişləri, göz yaşı yolu xəstəlikləri və digər problemləri əhatə edən ümumilikdə iki yüzə qədər monoqrafiya, məqalə və məruzələri həm ölkəmizdə təbabət elminin, həm də bütünlükdə dünya oftalmologiyasının inkişafına dəyərli töhfələr idi. Məhz buna görə o, elm qarşısında böyük xidmətlərinə, çoxillik elmi tədqiqat işlərinə görə Azərbaycanın Əməkdar elm xadimi fəxri adı ilə təltif olunmuş, Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdi».

Teymur Musayev Azərbaycan səhiyyəsinin inkişafında Zərifə xanım Əliyevanın digər bir xidmətindən — onun pedaqoji fəaliyyəti, həkimlərin peşəkar bacarıqlarının artırılması, yüksək ixtisaslı həkim kadrlarının formalaşması üzrə gördüyü işlərdən də danışdı: «Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun professoru, Oftalmologiya kafedrasının müdiri olan Zərifə xanım müdavimlərə oftalmologiyanın incəliklərini öyrədir, həkimlərin bilik və ixtisas səviyyəsini artırması üçün çalışır, bu yolda vaxtını, qüvvəsini heç zaman əsirgəmirdi. O, bir alim kimi də öz davamçılarını hazırlayır, böyük oftalmoloqlar nəsli yetişdirirdi.

Zərifə xanımın həkim kadrların formalaşmasına bir töhfəsi də həkimlik etikası, tibbi deontologiya sahəsində fəaliyyəti idi. Bu sahədə yazdığı əsərlər, bundan daha artıq dərəcədə, öz şəxsi nümunəsi — həkim kimi fədakarlığı, məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə diqqət göstərməsi ilə o, həkim-pasiyent münasibətlərinin örnəyini yaradır, bütün həmkarlarının bu səviyyəyə qalxmasına çalışırdı. Sadəliyinə, ziyalılığına, təmkin və nəcibliyinə görə Zərifə xanım onunla ünsiyyətdə olan hər bir insanın rəğbətini qazanırdı».

Səhiyyə naziri akademik Zərifə xanım Əliyevanın həyat yolunun bu görünən tərəfi ilə yanaşı, onun ömür kitabının hər kəs üçün açıq olmayan səhifələrindən — həddsiz bağlı olduğu ailəsi, sevimli həyat yoldaşı, əziz övladlarından da söz açdı: «Zərifə xanım əsil-nəcabətli bir nəslin nümayəndəsi, Azərbaycana, onun elminə, təhsilinə, səhiyyəsinə, mədəniyyətinə görkəmli şəxsiyyətlər bəxş etmiş bir ailənin üzvü idi. Atası Əziz Əliyev, qardaşları Tamerlan və Cəmil Əliyevlər, ailə şəcərəsinin növbəti nəslinin nümayəndələri ölkəmizdə səhiyyənin, təbabət elminin və tibb təhsilinin inkişafına dəyərli töhfələr vermişlər, bu gün də bu yolda fəaliyyətlərini davam etdirirlər.

Ailə dəyərlərinə sadiqliyi hər şeydən üstün tutması, həyatın hər anında ömür-gün yoldaşına arxa dayaq durması ulu ön-



dər Heydər Əliyevə şərəfli dövlətçilik fəaliyyətində əlavə güc, qüvvət verirdi. Ümummilli lider Heydər Əliyevin «böyük insan, sədaqətli həyat yoldaşı, çox mehriban ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan» adlandırdığı Zərifə xanım taleyin ona bəxş etdiyi bu qüdrətli şəxsiyyət — Ulu Öndər üçün möhkəm dayaq, sədaqətli ömür-gün yoldaşı, etibarlı dost, sarsılmaz arxa ola bilmişdi. Bu yolun başlanğıcında onların sevgisi çətin sınaqlardan keçmiş, həyatın bütün imtahanlarından üzüağ çıxmışdı. Bu ailənin təməli sonsuz məhəbbət, qarşılıqlı dəyər və hörmət üzərində qurulmuşdu, bir ömür boyu belə də davam etdi. Birbirinə ruhən çox yaxın olan bu iki parlaq şəxsiyyətin milli dəyərlərimizə əsaslanan, bütün cəmiyyət üçün örnək olan ailəsində iki övlad dünyaya göz açdı və cəmiyyətin ləyaqətli üzvü kimi tərbiyə aldı.

Bu gün Azərbaycan Respublikası hər sahədə inkişaf edən güclü dövlətdir. Onun müstəqillik dövründə keçdiyi yola, Vətənimizdə bu müddətdə baş vermiş dəyişikliklərə baxanda gördüyümüz fərq, bugünkü mənzərə hər bir vətəndaşı qürurlandırır və fərəhləndirir. Bu böyük tərəqqi, təbii ki, misilsiz zəhmət, hərtərəfli düşünülmüş siyasət, güclü iradə, mətin xarakter, müdrik idarəetmə bacarığı sayəsində mümkün olub. Bu xüsusiyyətləri özündə cəmləşdirən şəxs məhz Heydər Əliyev kimi bir dühanın, Zərifə xanım kimi fədakar ananın ailəsində böyüyüb ərsəyə gələ bilərdi. Zərifə xanımın adı Azərbaycana cənab İlham Əliyev kimi Prezident bəxş edən bir ana olaraq da tariximizə əbədi yazılıb.

2020-ci ildə 44 günlük Vətən müharibəsinin gedişində Azərbaycan Ordusu möhtəşəm zəfər qazandı, torpaqlarımızı düşmən tapdağından azad etdi. Dövlət başçısı çıxışlarında xüsusilə vurğulayır ki, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə alması bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi.

Bəli, ordunun, hərbçilərin, bütün cəmiyyətin vətənpərvərliyi qələbədə mühüm rol oynayır. Təbii ki, Ali Baş Komandanın Vətən sevgisi, qələbə əzmi qalibiyyət yolunda istənilən çətinliyə sinə gərməyə, qarşıya qoyulmuş müqəddəs vəzifəni nəyin bahasına olursa-olsun yerinə yetirməyə əlavə güc, qüvvət qatırdı. Bizə tarixi zəfəri qazandıran məhz bu oldu. Bu isə nəsildən, ailədən gəlir. Ölkəmizin sürətli inkişafının, uğurlarının, dünyadakı nüfuzunun, möhtəşəm zəfərinin təməlində Azərbaycan Prezidentinin bilik və bacarığı, qətiyyət və müdrikliyi, Ali Baş Komandanın mükəmməl sərkərdəlik qabiliyyəti durur, bunların kökü isə Ulu öndər Heydər Əliyevlə Zərifə xanımın təsiri və tərbiyəsinə sıx bağlıdır».

# «Nurdan yaranıb nura qovuşan insan»

*(Əvvəli 8-ci səhifədə)*

Teymur Musayev bu gün Zərifə xanımın ruhunun şad olduğuna əminliyini ifadə etdi. bildirdi ki, onun bütün ömrü boyu inkişafı üçün çalışdığı Azərbaycan səhiyyəsinin, oftalmologiyasının indi yüksək səviyyəyə qalxması, akademik Zərifə Əliyevanın adını daşıyan Milli Oftalmologiya Mərkəzinin hazırda görkəmli alimin adına layiq fəaliyyət göstərməsi, Zərifə xanımın həkimlərin təkmilləşməsi, yüksək ixtisaslı mütəxəssislər kimi formalaşması barədə arzularının gerçəkləşməsi bu əminliyi yaradır: «Ölkə səhiyyəsinin, bütünlükdə Azərbaycan Respublikasının tərəqqisi də Zərifə xanımın arzularının çin olması, gözləntilərinin reallaşmasıdır.

Zərifə xanım Əliyeva cəmi 62 illik ömrünü nurla yaşadı. Xəstələrinin gözlərinə nur bağışladı, tələbələrinin qəlbində elm işığı yandırdı, hər kəsin xatirəsində ziyalılıq, əsalət nümunəsi kimi qaldı. İnanıram ki, indiki və gələcək nəsillər Zərifə Əliyeva irsindən bəhrələnəcək, elmin yeni zirvələrini fəth edəcəklər. Akademik Zərifə xanım Əliyevanın işıqlı obrazı hər zaman ürəklərdə yaşayacaq, yandırdığı çıraq xalqımızın yoluna daim aydınlıq saçacaq», — deyə səhiyyə naziri nitqini tamamladı.

**AMEA-nın prezidenti İsa Həbibbəyli** çıxışında bildirdi ki, Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir: «Akademik Zərifə Əliyeva peşə patologiyası problemləri ilə yanaşı, oftalmologiyanın digər aktual istiqamətlərində tədqiqatlar aparıb. Zərifə xanım Əliyeva peşə xəstəliklərini öyrənərkən tibbi faktorlarla yanaşı, ictimai amillərin də nəzərə alınmasını diqqət mərkəzinə çəkib, bu istiqamətdə təhlillər və müqayisələr aparıb. Beləliklə, akademik Zərifə Əliyeva cəmiyyətşünas alim-həkim kimi yeni bir nümunə ortaya qoyub».

Xatirə gecəsində çıxış edən **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova** diqqətə çatdırdı ki, varlığından və şərəfli həyat yolundan qürurla danışdığımız Zərifə Əliyeva əsl elm fədaisi, görkəmli tədqiqatçı-alim kimi akademik dairələrdə böyük nüfuz və hörmətə malik olub. Eyni zamanda, onun simasında nəcib Azərbaycan qadını, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazı görürük. O, əminliyini bildirdi ki, xüsusilə gənc qızlarımız onun haqqında yazılanlarla tanış olduqca bu ibrətamiz həyat təcrübəsindən daim bəhrələnəcəklər: «Zərifə xanımın nümunəvi ömür yoluna nəzər salan hər kəs ilk növbədə bu zərif Azərbaycan qadınının timsalında mənəvi zənginliyi ilə diqqət çəkən, bitkin xarakterə malik olan bir insanla üzləşir».

Bahar Muradova həmçinin akademik Zərifə Əliyevanın bir oftalmoloq alim kimi bu gün də dəyərini itirməyən elmi işlərindən, bir ictimai xadim kimi cəmiyyətin maraqlarına uyğun, vətəndaş məsuliyyətinə söykənən fəaliyyətindən danışdı. Bu ailənin timsalında cəmiyyətin inkişafında ailə təsisatının möhkəmliyinin rolunu vurğuladı.

Görkəmli alimlə bağlı xoş xatirələrini bölüşən **Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov** vurğuladı ki, akademik Zərifə Əliyeva böyük elmi məktəb yaratmış, Azərbaycanı beynəlxalq miqyasda tanıdan, şöhrətləndirən böyük şəxsiyyətlərdən, elm xadimlərindən idi. Belə şəxsiyyətlərin yetişməsində onların yaşadığı, formalaşdığı ailənin, mühitin mühüm rolu olduğunu deyən Ə.Əmiraslanov bu baxımdan Zərifə xanımın Əziz Əliyev kimi bir şəxsiyyətin ailəsində dünyaya göz açmasını, boya-başa çatmasını xüsusi vurğuladı. Onun sözlərinə görə, Zərifə Əliyeva oftalmologiyanın hansı sahəsinə müraciət edibsə, orada yeni söz deyib. Ülvi keyfiyyətlərə malik olan Zərifə xanım öz elmi fəaliyyətində tibbi etika və deontologiya məsələlərinə xüsusi yer verib. Oftalmologiya sahəsində unikal elmi məktəbin yaradıcısı, böyük alim, bütün həyatı boyu Hippokrat andına olan sədaqətini nümayiş etdirən akademik Zərifə Əliyeva təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməyib. O, 1962-1969-cu illərdə Tibb kollecində peşəkar səhiyyə işçilərinin hazırlanmasına da böyük əmək sərf edib.

Xatirə gecəsində çıxış edən **1 nömrəli Bakı Tibb Kollecinin direktoru Nailə Əliyeva** qeyd etdi ki, hər bir millət üçün mənsub olduğu ölkənin tarixində unudulmaz şəxslərin yaşaması, yaratması fəxr olunası bir haldır: «Elə şəxslər var ki, onların öz xalqı qarşısındakı xidmətləri əvəzsizdir. Bu gün biz məhz belə bir şəxsin — həyatımıza, elmimizə, tibbimizə, təhsilimizə sönməyən çıraq olan oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın işığına toplaşmışıq. İnsanların göz nurunun qorunmasına çalışan Zərifə xanımın yaşadığı ömrün özü də bir işığa bənzəyir və bu işıqdan hamıya pay çatıb — ailəsinə, övladlarına, ətrafındakı olan hər kəsə, gözünün nurunu itirmiş insanlara. Zərifə xanım bütün həyatı, fəaliyyəti, səmimiliyi və xeyirxahlığı ilə nümunə olan nəcib Azərbaycan qadınıdır».

Tədbir ədəbi-bədii kompozisiya ilə davam etdi.

# Şəhid ailələrinin və qazilərin dərmanlarla təminində güzəştlər məqsədəuyğundur

**Şəhid ailələrinin, qazilərin, əlillərin, təqaüddə olanların dərman vasitələri ilə təmin edilməsində güzəştlərin tətbiqi məqsədəuyğundur. Bu prosesi mərhələ-mərhələ həyata keçirmək mümkündür.**



AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov komitənin iclasında «Dərman vasitələri haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirələri zamanı deyib.

Yeni qanun layihəsinin ölkədə səhiyyə və tibbi sığorta sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə hazırlandığını qeyd edən komitə sədri sənədi müsbət addım kimi dəyərləndirib.

Bəzi dərmanların qiymətinin baha olmasından danışan komitə sədri dərman vasitələrinin qeydiyyatının sadələşdirilməsi istiqamətində müəyyən işlərin görülməsinə də ehtiyac yarandığını diqqətə çatdırıb.

Əhliman Əmiraslanov həmçinin tibbi tullantılarla bağlı dinləmənin keçirilməsini təklif edib.

# Ağdamda Azərbaycan - BMT tərəfdaşlığı üzrə strateji məsləhətləşmələr aparılıb

**Ağdam şəhərində Azərbaycan hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının (BMT) ölkəmizdə fəaliyyət göstərən qurumları arasında İllik yüksək səviyyəli strateji məsləhətləşmələrə həsr olunmuş dəyirmi masa keçirilib. Tədbir BMT ilə Azərbaycan Respublikasının əməkdaşlığında vacib olan proses və təşəbbüslərin, qabaqcıl yanaşmaların müzakirəsi məqsədi daşıyıb.**



Bu münasibətlə BMT-nin və Azərbaycan hökumətinin ümumilikdə 30-dan çox nümayəndəsi işğaldan azad olunmuş Füzuli və Ağdam rayonlarına səfər edib.

Əvvəlcə qonaqlar təyyarə ilə Füzuli Beynəlxalq Hava Limanına gəliblər. Onlar Füzuli şəhərində işğal dövründə törədilmiş erməni vəhşiliyi — urbisidlə tanış olublar, eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq və tikinti işləri, Azərbaycan tərəfindən həyata keçirilən infrastruktur layihələri, Füzuli şəhərinin inkişaf planı barədə məlumatlandırılıblar.

Sonra qonaqlar Ağdam rayonunda keçiriləcək tədbirə yola düşüblər.

Dəyirmi masada Azərbaycan Respublikasının Səhiyyə, Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı nazirliklərinin, Dövlət Şəhərsalma və Arxitektura, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət komitələrinin, Minatəmizləmə Agentliyinin rəhbərləri, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzində təmsil olunan Prezident Administrasiyası əməkdaşları, habelə BMT agentliklərinin Azərbaycanda fəaliyyət göstərən ofislərinin rəhbər şəxsləri iştirak ediblər.

Tədbirdə Azərbaycanın BMT tərəfindən qəbul edilən Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmasının daha da sürətləndirilməsi, bu prosesdə azad edilmiş ərazilərdə uğurla həyata keçirilən bərpa və yenidənqurma işlərinin rolu, minatəmizləmə və onun DİM-lərə təsiri, ətraf mühitin qorunması və su ehtiyatlarından səmərəli istifadə, kənd təsərrüfatı, səhiyyə, şəhərsalma, gender məsələləri, ölkəmizin BMT ilə digər əməkdaşlıq istiqamətləri müzakirə edilib.

Toplantıda qeyd olunub ki, Azərbaycan Respublikasında DİM-ə nail olmaq istiqamətində işlər durmadan aparılmaqdadır. Ölkəmizin işğaldan azad edilmiş ərazilərində həyata keçirilən əsaslı bərpa və yenidənqurma layihələri həmin səylərin tərkib hissəsi olaraq mühüm əhəmiyyət kəsb edir.

Ölkəmiz inkişaf məqsədlərinə, ilk növbədə, daxili potensial və imkanlardan, eyni zamanda, çoxtərəfli beynəlxalq əməkdaşlıq mexanizmlərindən istifadə etməklə nail olur. Bu əməkdaşlıq ölkəmiz üçün əhəmiyyətli olan müxtəlif sahələri, o cümlədən ətraf mühitin qorunması, səhiyyə, kənd təsərrüfatının inkişafı və digər məsələləri əhatə edir. Eyni zamanda, Azərbaycan üçün əsas prioritetlərdən olan Böyük Qayıdış çərçivəsində işğaldan azad edilmiş ərazilərdə iqtisadi davamlılıq, humanitar minatəmizləmə, ərazilərin sosial-iqtisadi reinteqrasiyası məsələlərinin dünyada mövcud olan təcrübənin nəzərə alınması ilə təşkili önəmlidir.

Azərbaycan Respublikasının sözügedən istiqamətlərdə bu günədək həyata keçirdiyi tədbirlər beynəlxalq müstəvidə yüksək qiymətləndirilir. Bir neçə aparıcı beynəlxalq təşkilat, o cümlədən BMT tərəfindən bərpa və yenidənqurma işlərinin ilkin mərhələsi müsbət qarşılanıb. Yaxın gələcəkdə bu istiqamətdə müvafiq ərazilərdə əməkdaşlığın genişləndirilməsi gözlənilir.

Ötən il Şuşada təşkil edilmiş, Azərbaycan - BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantının davamı olaraq baş tutan bu tədbirdə azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri, oraya əhalinin qayıdışı və bu prosesdə beynəlxalq təcrübənin tətbiqi müzakirə edilib.

Həmçinin bu müstəvidə BMT, Dünya Bankı və Avropa İttifaqının birgə postböhran mexanizmi olan bərpa ehtiyaclarının qiymətləndirilməsi metodologiyasının ölkəmizdə tətbiqi sahəsində fikir mübadiləsi aparılıb.

Tədbirin yekununda «Heydər Əliyev İli» çərçivəsində Ağdam şəhərində ağacəkmə aksiyası keçirilib.

# Bakıda koronavirus xəstələrinə yardım göstərən həkimlərin maaşına əlavənin müddəti uzadılıb

**Nazirlər Kabinetinin Qərarı ilə Bakıda koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin əməkhaqqına əlavənin müddəti uzadılıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Baş naziri Əli Əsədov bununla bağlı Qərar imzalayıb.

Belə ki, «Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» qərarda dəyişiklik edilib.

Qərara əsasən, Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına əlavənin ödənilməsi müddəti 2023-cü il mayın 1-dək uzadılıb.

# Azərbaycan - İsveçrə səhiyyə əməkdaşlığının genişləndirilməsi müzakirə olunub

**Azərbaycan Səhiyyə Nazirliyində İsveçrənin tibbi avadanlıq istehsalı üzrə aparıcı şirkəti olan «Roche Diagnostics» şirkətinin nümayəndələri ilə görüş keçirilib.**



Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə nazir Teymur Musayev Azərbaycanla İsveçrənin dost və tərəfdaş ölkələr olduğunu vurğulayıb. T.Musayev bildirib ki, Azərbaycan onun müstəqilliyini tanıyan ilk dövlətlərdən biri kimi İsveçrə ilə əməkdaşlığın dərinləşməsinə xüsusi önəm verir: «Dövlət başçılarının müntəzəm görüşləri, eyni zamanda, hökumət üzvlərinin qarşılıqlı səfərləri iki ölkə arasında müxtəlif istiqamətlərdə münasibətlərin inkişafında mühüm rol oynayır».

Nazir iki ölkə arasında səhiyyə sahəsində də məhsuldar əməkdaşlıq əlaqələrinin mövcudluğunu qeyd edib. Onun sözlərinə görə, yüksəkixtisaslı həkimləri və ən müasir tibb müəssisələrini özündə birləşdirən İsveçrə səhiyyə sistemi dünyada nümunəvi model kimi tanınır. Eyni zamanda, İsveçrə əczaçılıq və tibb avadanlıqlarının istehsalı və satışı üzrə dünyanın aparıcı ölkələrindən biridir.

Öz növbəsində «Roche Diagnostics» şirkətinin Türkiyə, Mərkəzi Asiya və Qafqaz bölgəsi üzrə baş meneceri Cordi Fernandez və şirkətin Mərkəzi Asiya və Qafqaz ölkələri üzrə rəhbəri Hasan Demirci Azərbaycanla əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduqlarını vurğulayıblar. Bildirilib ki, «Roche Diagnostics» şirkəti xərçəng, ağır virus infeksiyaları, autoimmun iltihabi xəstəliklər, mərkəzi sinir sisteminin fəaliyyətinin pozuntuları və maddələr mübadiləsinin müalicəsinə yönəlmiş biotexnoloji məhsulların aparıcı istehsalçısıdır. İsveçrə şirkətinin nümayəndələri bu sahədə öz təcrübələrini yerli mütəxəssislərlə bölüşməyə hazır olduqlarını bildiriblər.

Görüşün sonunda tərəflər səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi və maraq doğuran digər məsələlərlə bağlı geniş fikir mübadiləsi aparıblar.




# UNAIDS-in rəhbəri Azərbaycanın yoluxucu xəstəliklərlə mübarizəsini müsbət qiymətləndirir

X Qlobal Bakı Forumu çərçivəsində səhiyyə naziri Teymur Musayevlə Birləşmiş Millətlər Təşkilatının (BMT) İnsanın İmmunçatışmazlığı Virusu Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru, BMT-nin Baş katibinin müavini xanım Vinni Byanyima arasında görüş keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən məlumat verilir ki, Qlobal Bakı Forumunda iştirak etdiyinə görə UNAIDS-in icraçı direktoruna təşəkkürünü bildirən Teymur Musayev Azərbaycanın BMT-nin aidiyyəti təsisatları ilə yaxından əməkdaşlıq etdiyini və onların fəaliyyətini dəstəklədiyini vurğulayıb.

X Qlobal Bakı Forumunda iştirakından məmnunluğunu ifadə edən UNAIDS-in icraçı direktoru Forumun çox yüksək səviyyədə təşkil olunduğunu söyləyib. Vinni Byanyima Azərbaycanın QİÇS və digər yoluxucu xəstəliklərə qarşı mübarizə sahəsində gördüyü işləri müsbət qiymətləndirib.

Görüşdə qarşılıqlı maraq kəsb edən digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Bakıda ilk dəfə Beynəlxalq Uzunömürlülük Konqresi keçirilib

**Bakıda fəal uzunömürlülük sahəsində ən parlaq beynəlxalq mütəxəssislərin iştirakı ilə «Viva La Vida» Beynəlxalq Uzunömürlülük Konqresi təşkil edilib. Dövrümüzün ən fundamental məsələlərindən birinə toxunan konqres təkcə Azərbaycanda deyil, ümumiyyətlə, regionda ilk dəfə olaraq keçirilib.**

«Viva La Vida» Beynəlxalq Uzunömürlülük Konqresində səhiyyə nazirinin müavini İlqar Qasımov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədr müavini Nigar Bayramova, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktorunun müavini Araz Nəsirov çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, toplantıda müxtəlif ölkələrdən olan nüfuzlu mütəxəssislər rahat uzunömürlülük problemlərini həll edən dünya tədqiqatları barədə məlumat veriblər. Qeyd edilib ki, Azərbaycan qədim zamanlardan uzunömürlülər diyarı kimi tanınır, bu fenomen araşdırılır və təbliğ olunur.

«Viva La Vida» konqresinin təşkilatçılarından biri, «Sea Breeze Anti-Aging Center» sağlamlıq kompleksinin yaradıcısı Həcər Cəfərova tədbirlə bağlı deyib: «Uzunömürlülük hüceyrə səviyyəsindən başlayır və genetikadan, ətraf mühitdən və həyat tərzindən asılıdır. Biz bunu fiziki və əqli bərpaya vahid yanaşma yolu ilə uzunömürlülük səyahətində tibb və insan təcrübəsini yenidən təsəvvür etmək missiyamız kimi görürük».

Konqres çərçivəsində Azərbaycanda fəaliyyətə başlayan «Caspi Mayr» unikal sağlamlıq kompleksinin təqdimatı olub. Bu, tamamilə yeni mərkəzdir ki, burada Azərbaycanda ilk dəfə olaraq Mayr sağlamlıq konsepsiyasına uyğun olaraq hazırlanmış, patentləşdirilmiş detoks proqramından keçmək mümkün olacaq. Proqram bir çox beynəlxalq mükafatlara layiq görülüb və ən yaxşısı kimi tanınıb. Kompleks Xəzər dənizinin sahilində yerləşir və burada dəniz havası yalnız bu terapevtik texnikanın bütün üstünlüklərini artırır.

«Viva La Vida» Beynəlxalq Konqresi çərçivəsində uzunömürlülük məsələlərinə həsr olunmuş sərgi də keçirilib. Burada iştirakçılar yaşlanma əleyhinə təklif olunan innovativ xidmətlər və həllərlə tanış olublar.

# Azərbaycan vərəmlə mübarizə sahəsində beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir

**Səhiyyə Nazirliyinin «Heydər Əliyev İli» çərçivəsində təşkil etdiyi silsilə tədbirlər çərçivəsində nazirliyin Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu (ETAXİ) tərəfindən «Uşaq və yeniyetmələrdə vərəmin profilaktikası: problemə müasir yanaşma» mövzusunda Beynəlxalq elmi-praktik konfrans keçirilib.**



Tədbirdə Səhiyyə Nazirliyinin rəsmiləri, millət vəkilləri, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB), Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzinin, Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin əməkdaşları, Rusiya Federasiyası Səhiyyə Nazirliyinin baş mütəxəssisləri, həmçinin ETAXİ-də, eləcə də ölkəmizin digər müəssisələrində vərəmlə mübarizə sahəsində çalışan həkim-ftiziatrlar və ilkin səhiyyə xidməti həkimləri iştirak ediblər.

Tədbir iştirakçılarına Professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Səhiyyə nazirinin müavini Nadir Zeynalov tədbir iştirakçılarını səhiyyə naziri Teymur Musayevin adından salamlayıb və Azərbaycanın dövlətçilik tarixində Ulu Öndər Heydər Əliyevin müstəsna rolunu qeyd edib: «Ümummilli Lider əhalinin sağlamlığının mühafizəsinə, millətin genofondunun qorunmasına xüsusi diqqət ayırırdı. Ulu Öndər uşaqlara qayğı ilə yanaşırdı. Onun «Uşaqlar bizim gələcəyimizdir» sözləri bir şüara çevrilmişdi. Bu gün Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev səhiyyə sahəsinin inkişafına xüsusi diqqət yetirir. Həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyeva uşaqların, yeniyetmələrin və anaların sağlamlığını səhiyyəmizin əsas prioritetlərindən biri kimi təyin edib».

Keçirilən Beynəlxalq elmi-praktik konfransın təbabətin ən vacib sahələrindən birinə - uşaq və yeniyetmələrdə vərəmin profilaktikası mövzusuna həsr olunduğunu qeyd edən nazir müavini deyib: «Ölkədə uşaqlar və yeniyetmələr arasında vərəm xəstəliyinə yoluxma hallarında əvvəlki dövrlərlə müqayisədə son 10 ildə azalma müşahidə olunur. Yüz min uşaq əhalisinə düşən göstəricilərə görə, vərəm xəstəliyinə yoluxma halları 2,5 dəfədən çox azalıb. Bildiyiniz kimi, vərəmlə mübarizə qlobal məsələdir. Azərbaycan vərəmlə mübarizə tədbirlərini ən yaxşı təşkil edən ölkələrdən biridir. Ölkəmizdə ictimai sağlamlığın əsas məsələlərindən olan vərəmlə mübarizə üzrə dövlət proqramı və Milli Strategiya qəbul edilib, ixtisaslaşmış tibb müəssisələri tikilib, müasir yanaşma tətbiq olunur. Eyni zamanda, ölkəmiz bu sahədə beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir».




Tədbirdə çıxış edən ETAXİ-nin direktoru İradə Axundova qeyd edib ki, ölkəmizdə vərəm əleyhinə xidmət Səhiyyə Nazirliyi Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun nəzdində fəaliyyət göstərən Milli Vərəm Proqramı Mərkəzi tərəfindən aparılır. Onun sözlərinə görə, Səhiyyə Nazirliyinin Milli Vərəm Proqramı çərçivəsində son 7 ildə xəstələnmənin dinamikasında müsbət dəyişikliklər (2016-cı ildə 100 min əhaliyə 38,9 vərəm halından 2022-ci ildə 100 min əhaliyə 28 vərəm halınadək azalma) müşahidə olunub. «Bu azalma tendensiyası ölkədə ümumilikdə epidemioloji proseslərin stabilləşməsini göstərir», - deyə institutun direktoru bildirib.

Beynəlxalq elmi-praktik konfransda Professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının direktoru Rəşid Bədəlovun, Rusiya Federasiyası Səhiyyə Nazirliyinin baş mütəxəssisləri Valentina Aksenovanın, Lyudmila Şovkun və digərlərinin məruzələri dinlənilib.

Elmi-praktik konfrans Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiya olunub və 8 DTT kredit balı ilə qiymətləndirilib.

Tədbirin sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

# Azərbaycanda vərəmlə mübarizədə son 10 il ərzində böyük uğurlar əldə olunub

**Səhiyyə Nazirliyinin, Ölkə Əlaqələndirmə Komissiyasının (CCM), Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun və Azərbaycan Vərəm əleyhinə QHT Koalisiyasının birgə təşkilatçılığı ilə Ümumdünya Vərəmlə Mübarizə Gününə həsr olunmuş konfrans keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidməti bildirir ki, tədbirdə əvvəlcə «Stop TB Partnership» təşkilatının icraçı direktoru xanım Luçika Ditiunun konfrans iştirakçılarına ünvanladığı videomüraciət dinlənilib. Müraciətdə vərəmin hazırda dünyada ən çox ölümə səbəb olan yoluxucu xəstəlik olduğu qeyd edilib: «Hələ də hər gün 4000-4500 nəfər insan vərəmdən dünyasını dəyişir, onlardan 700-ü uşaqlardır. Vərəm hava yolu ilə ötürülən xəstəlikdir. Biz bütün səylərimizi birləşdirərək 2030-cu ilədək vərəmi tamamilə ləğv edə bilməsək də, ona son qoya bilərik, yoluxmanı dayandıra bilərik. Əminəm ki, Azərbaycan 2030-cu ilədək öz insan və maliyyə resurslarını səfərbər edərək vərəmə son qoymağı bacaracaq».

Səhiyyə sahəsində ölkəmizin uğurlarını qeyd edən **səhiyyə nazirinin müavini Nadir Zeynalov** vurğulayıb ki, bir neçə gün öncə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Azərbaycanı «malyariyadan azad» ölkə kimi sertifikatlaşdırıb. N.Zeynalov həmçinin ölkəmizdə vərəmlə mübarizə sahəsində də vacib addımlar atıldığını və beynəlxalq platformalarda bir çox ölkələrə nümunə olduğunu qeyd edib.

**Milli Məclisin Səhiyyə komitəsinin üzvü, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəhbəri Soltan Məmmədov** bildirib ki, ölkəmizdə həm dövlət, həm qeyri-dövlət təşkilatlarının birgə səyi nəticəsində vərəmlə mübarizədə son 10 il ərzində böyük uğurlar əldə olunub və Azərbaycan beynəlxalq əməkdaşlıq platformalarından uğurla istifadə edir.




# Səhiyyə Nazirliyi müharibə veteranları və şəhid ailələri üçün «Çağrı Mərkəzi» yaradır

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müharibə veteranları və şəhid ailələrinə psixoloji yardım və tibbi reabilitasiya üzrə 9109 qısa nömrəli «Çağrı Mərkəzi» aprelin 1-dən istifadəyə veriləcək.**

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, müharibə veteranlarına və şəhid ailələrinə göstərilən psixoloji dəstəyin təkmilləşdirilməsi, tibbi reabilitasiya xidmətlərinin mütəmadiliyinin təmin edilməsi, sahəvi fəaliyyətlərin digər dövlət qurumları ilə koordinasiyalı şəkildə təşkili məqsədilə Səhiyyə Nazirliyinin 9109 qısa nömrəli «Çağrı Mərkəzi» yaradılıb.

Bildirilib ki, «Çağrı Mərkəzi»nə daxil olan müraciətlərin operativ şəkildə həlli məqsədilə aidiyyəti dövlət qurumları ilə inteqrasiya olunmuş «Müharibə veteranları və şəhid ailələrinə psixoloji yardım və tibbi reabilitasiya üzrə Vahid Nəzarət Platforması» formalaşdırılıb.

9109 «Çağrı Mərkəzinə» müraciətlər həftənin bütün günləri, günün istənilən vaxtında qəbul olunur.

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

World Health Organization

# ÜST Azərbaycanı malyariyadan azad ölkə elan edib

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən malyariyadan azad ölkə elan edilib. ÜST-nin Avropa Regional Ofisi Azərbaycanın malyariyadan azad ölkə kimi sertifikatlaşdırılması barədə məlumat yayıb.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirildiyinə görə, ÜST-nin Avropa Regional Ofisinin hesabatında bununla bağlı deyilir ki, bu nailiyyət davamlı siyasi sərmayə, səhiyyə işçilərinin fədakarlığı, malyariyaya yoluxma hallarının məqsədyönlü profilaktikası, erkən aşkarlanması və müalicəsi sayəsində mümkün olub.

AZƏRTAC yazır ki, ÜST-nin Avropa üzrə regional direktoru Hans Klüge malyariyadan azad ölkə kimi tanınması münasibətlə Azərbaycanı təbrik edib.

Uzun illərdir ki, Azərbaycanda malyariyanın qarşısının alınması və ocaqlarının aradan qaldırılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu səylər nəticəsində ölkəmizdə 2013-cü ildən bəri malyariyaya yerli yoluxma halları qeydə alınmayıb.

2021-ci ilin sentyabr ayında Səhiyyə Nazirliyinin rəhbərliyi Azərbaycanda malyariya xəstəliyinə yoluxmanın kəsilməsi üzrə sertifikatlaşdırma prosesinə başlamaqla bağlı ÜST-nin baş direktoru Tedros Gebreyesusa rəsmi müraciət ünvanlayıb. Bu proses çərçivəsində ÜST-nin sertifikatlaşdırma missiyası Azərbaycanda səfərdə olub.

Qeyd edək ki, malyariya ilə yerli yoluxmanın kəsilməsinin sertifikatlaşdırılması ÜST tərəfindən ölkənin malyariyadan azad statusunun rəsmi tanınmasıdır. ÜST bu sertifikatı ölkəyə bütün malyariya parazitlərinin yerli ötürülmə zəncirinin ən azı son 3 ardıcıl il müddətində ölkə daxilində kəsilməsi və yoluxmanın qarşısını ala biləcək tam funksional nəzarət və cavab sisteminin mövcudluğuna dair sübutlar olduqda verir.

# ATU-nun Türkiyədə zəlzələ bölgəsində könüllü işləyən həkimlərinə Fəxri Fərmanlar təqdim olunub

**Türkiyədə zəlzələ baş verən ilk gündən etibarən bütün Azərbaycan ayağa qalxdı və təbii fəlakətdən zərərçəkənlərə hər istiqamətdə yardım kampaniyası başlandı. Maddi və mənəvi yardımla yanaşı, çoxsaylı həkimlərimiz də Türkiyədə xidmət göstərdilər. Həmin kampaniyada Azərbaycan Tibb Universitetinin (ATU) əməkdaşlarının da təmsil olunduğu Azərbaycan Könüllü Həkimlər Assosiasiyası (AKHA) yaxından iştirak etdi. Assosiasiyanın zəlzələ bölgəsində fəaliyyəti haqqında Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında təqdimat keçirilib.**



Universitetin mətbuat xidmətindən bildirilib ki, tədbirdə AKHA-nın rəhbəri, **ATU-nun Ağız, üz-çənə cərrahiyyəsi kafedrasının assistenti Oqtay Mehdiyev** çıxış edərək həkimlərimizin könüllü olaraq yardımı ilə bağlı məlumat verib. Təqdimatda Kahramanmaraş şəhərində AKHA üzvlərinin Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin təmsilçiləri ilə birlikdə mobil səhra hospitalının qurulmasındakı fəaliyyəti, həkimlərin həyata keçirdiyi digər işlər haqqında məlumatlar yer alıb.

Təqdimatdan sonra çıxış edən **ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru Avcil Mücahit** Azərbaycan dövlətinin və vətəndaşlarının həmin yanaşmasından çox təsirləndiyini bildirib, ümumilikdə türk milləti adından təşəkkürünü çatdırıb: «Fəlakətdən dərhal sonra yanımızda ilk Azərbaycanı gördük. Elə təqdimatdan da aydın olur ki, zəlzələdən zərər çəkən vətəndaşlarımıza hər cür yardım göstərmisiniz. Şəxsən öz adıma, göstərilən diqqətə görə çox duyğulandığımı və qürurlandığımı deyə bilərəm. İnanıram ki, qardaşlığımız daimi olacaq, bayraqlarımız əbədi olaraq yanaşı qalacaq».

**Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyinin mətbuat üzrə müşaviri Hüseyin Altınalan** Azərbaycan ictimaiyyətinin hər təbəqəsinin Türkiyədə baş verən zəlzələnin ağrısını ürəyində hiss etdiyini bildirib. O, çətin və ağrılı dönəmdə ölkə rəhbərliyindən sadə vətəndaşa qədər hər kəsə göstərdiyi yardımlara görə öz təşəkkürünü bildirib.

Tədbirin sonunda mobil səhra hospitalında çalışmış könüllü həkimlərə fəxri fərmanlar təqdim olunub.







## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### Ədliyyə Nazirliyinin tibb xidmətinə qulluğa qəbulla bağlı müsabiqə davam edir

Ədliyyə Nazirliyi tibb xidmətinin kadr korpusunun müsabiqə və şəffaflıq əsasında yüksək hazırlıqlı və zəruri peşə keyfiyyətlərinə malik kadrlarla komplektləşdirilməsi üzrə tədbirlər davam etdirilir.

«Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə cavab verən təcrübəli həkim-terapevt, həkim-anestezioloq-reanimatoloq, həkim otolorinqoloq, həkim-travmatoloq, həkim-cərrah, həkim-laborant, feldşer, laborant, tibb bacısı (qardaşı) ixtisaslı və işləmək hüququna malik Azərbaycan Respublikasının vətəndaşları tibb xidmətində çalışmaq üçün müsabiqəyə dəvət olunur.

Xatırladırıq ki, vakant ştat vahidləri cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının tibb xidmətlərindədir.

Müsabiqədə iştirak etmək üçün sənədlər Ədliyyə Nazirliyi Tibb baş idarəsinin inzibati binasında qəbul olunur.

*Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Ceyhun Hacıbəyli küçəsi, 16 və 18.*
*Telefon: (012) 493-30-91*

### «Respublika Narkoloji Mərkəzi» PHŞ

Sosioloq - 2.0
Tibb bacısı (qardaşı) - 4.0
Rentgen-texnik - 1.0
Tibbi-statistik - 1.0

*Ünvan: Maştağa qəs, Axund Şeyx Hüseyn küç., 71*
*Telefon: 558-75-16*

### 4 nömrəli Uşaq Somatik Sanatoriyası

Tibb bacısı (qardaşı) - 1.0 (fizioterapiya və tibbi bərpa kabineti)
Tibb bacısı (qardaşı) - 3.0
Müalicəvi bədən tərbiyəsi üzrə təlimatçı - 1.0

*Ünvan: Şüvəlan qəs., A.Sultanova küç., 28*
*Telefon: 454-15-98*

### Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu

*Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikası*

Əczaçı -1.0

*Ünvan: Tbilisi pr., 3165-ci məh. Telefon: 431-01-82*

### Respublika Uşaq Sanatoriyası

Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: Buzovna qəs., R.İmanov küç., 37*
*Telefon: 453-31-41*

### «Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi» PHŞ

Tibb bacısı (qardaşı) - 3.0

*Ünvan: Maştağa qəs, A.Hüseyn küç., 69/71*
*Telefon: 455-44-79*

### Milli Onkologiya Mərkəzi

*Anesteziologiya-reanimatologiya bölməsinə:*

Rəhbər - 1.0 («anesteziologiya və reanimatologiya» ixtisasında tibb üzrə fəlsəfə doktoru)

*Ünvan: H.Zərdabi küç.,79b*
*Telefon: 537-08-11*

### Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Tibbi-statistik - 1.0

*Ünvan: Rəsulzadə qəs., Ə.Məmmədov küç., 13*
*Telefon: 412-03-81*

### Göyçay Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Sanitar-feldşer - 1.0

*Ünvan: Əli Kərim küç., 77*
*Telefon: (02027) 4-11-51*

**QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun Azərbaycan Respublikasında həyata keçirdiyi proqramları çərçivəsində Səhiyyə Nazirliyi HIV/AIDS, Vərəm və Malyariya ilə mübarizə üzrə proqramın Layihə Əlaqələndirmə Bürosunda (LƏB) satınalma, logistika və sağlamlıq məhsullarının idarə edilməsi üzrə mütəxəssis (SLSMİEM) axtarılır.**

*Əlaqə nömrəsi: +99412 4982032*

Baş redaktor:
N.MƏCİDOVA
Baş redaktorun müavini:
S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92
Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq
Tel./fak: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065 Tiraj: 9400